

Milli azadlıqdan
şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

04 fevral 2026-cı il, çərşənbə
№ 021 (7088)
Qiymət 60 qəpik


# “Sülh Qalxanı-2026”

Bax səh. 2

## Azərbaycan ilə BƏƏ arasında strateji hərbi tərəfdaşlıq dərinləşir



Bax səh. 2

# Yüksəksəviyyəli münasibətlərin yeni səhifəsi

Bax səh. 3

## Naxçıvanın inkişafı üçün mühüm islahatlar...



Bax səh. 3

Hidayət

## Mehdiyevin təqibləri, açıq düşmənçiliyi...

İnsanda (özü də rəhbər işçidə!) bir insana qarşı nə qədər qərəz, kin-küdurət, məkr ola bilərmiş?!

Bax səh. 5



Bax səh. 4

## YAP Mərkəzi Aparatında görüş

## 162 xidmət bir pəncərədə

Bax səh. 4

## Hindistanda siqhlərə qarşı cinayətlər...

Bax səh. 4

## Lütfi Zadə: Zamanı qabaqlayan zəka!

Bax səh. 6

## Əbu-Dabidə növbəti raund...

Bax səh. 7

## Avropanın neftə tələbatı artır...



Bax səh. 7

## Gürcüstan üçün aktual olan köhnə gündəlik



Bax səh. 6

# Prezidentlər Əbu-Dabidə “Sülh Qalxanı - 2026” birgə əməliyyat-taktiki təlimini izləyiblər






Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan iki ölkənin Silahlı qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə Əbu-Dabidə keçirilən “Sülh Qalxanı - 2026” birgə əməliyyat-taktiki təlimini izləyiblər.

AZƏRTAC xəbər verir ki, yaşayış məntəqəsi, dağlıq ərazi və dəniz mühitində keçirilən birgə təlimdə qanunsuz silahlı dəstələrin aşkarlanaraq zərərsizləşdirilməsi, ələ keçirilmiş gəmi üzərində nəzarətin bərpası, terrorçu ünsürlərin zərərsizləşdirilməsi, yaralıların təxliyəsi, yaşayış məntəqəsində ictimai təhlükəsizliyə təhdid yaradan iğtişaş və sabotaj xarakterli fəaliyyətlərin qarşısının alınması, eləcə də yanğınsöndürmə fəaliyyətləri üzrə tapşırıqlar yerinə yetirilib.

Qeyd edək ki, təlimin əsas məqsədi ölkələrimizin hərbi kontingentinin antiterror əməliyyatları üzrə peşə bacarıqlarını təkmilləşdirmək, dayanıqlı sülhün təmin olunmasına töhfə vermək və qarşılıqlı təcrübə mübadiləsi aparmaqdır.

## Prezident İlham Əliyev Əbu-Dabidə Müsəlman Ağsaqqalları Şurasının baş katibi ilə görüşüb



Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əbu-Dabi şəhərində Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Məhəmməd Əbdülsalam Azərbaycana səfərlərini və dövlətimizin başçısı ilə görüşlərini böyük məmnunluqla xatırladı. O, Prezident İlham Əliyevi “Zayed İnsan Qardaşlığı Mükafatı”na layiq görülməsi münasibətilə bir daha təbrik etdi.

Prezident İlham Əliyev təbrikə və yüksək mükafata görə minnətdarlığını bildirərək, Zayed Fondunun fəaliyyətini, xüsusilə Birləşmiş Ərəb Əmirliklərinin qurucusu Şeyx Zayed bin Sultan Al Nəhyanın humanitar irsinin və bəşəri dəyərlərinin dünyada təşviq edilməsində oynadığı mühüm rolu yüksək qiymətləndirdi.

Azərbaycan Prezidentinin bu mükafata layiq görülməsi, həmçinin Roma Papası XIV Leonun və Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Əl-Tayyibin Azərbaycan Prezidentinin sülhün bərqərar olunması istiqamətində fəaliyyətinə verdikləri qiymətin təcəssümü kimi dəyərləndirildi.

## “Sülh Qalxanı-2026”

Azərbaycan Respublikasının milli təhlükəsizlik strategiyasında ordu quruculuğu hər zaman prioritet istiqamət kimi müəyyən edilib. Müasir dövrdə beynəlxalq münasibətlər sistemində müşahidə olunan qeyri-sabitlik, regional münaqişələr, geosiyasi rəqabətin kəskinləşməsi və yeni təhlükə mənbələrinin meydana çıxması dövlətləri öz müdafiə imkanlarını daim gücləndirməyə vadar edir. Bu reallıqlar fonunda Azərbaycan yalnız daxili hərbi potensialını artırmaqla kifayətlənmir, eyni zamanda, dost, qardaş və tərəfdaş ölkələrlə təhlükəsizlik sahəsində əməkdaşlığı ardıcıl şəkildə genişləndirir. Birgə hərbi təlimlər bu əməkdaşlığın ən mühüm və praktiki elementlərindən biri kimi çıxış edir.

Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq hərbi təlimlərdə iştirakı ordunun döyüş hazırlığının yüksəldilməsi, yeni taktiki vərdişlərin mənimsənilməsi, müasir hərbi texnologiyaların tətbiqi və qarşılıqlı əməliyyat uyğunluğunun artırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında keçirilən birgə hərbi təlimlər iki ölkə arasında mövcud olan strateji tərəfdaşlığın hərbi müstəvidə də dərinləşdiyini nümayiş etdirir. 2026-cı ildə planlaşdırılan və icra edilən “Sülh Qalxanı-2026” birgə hərbi təlimi də bu əməkdaşlığın növbəti mərhələsi olmaqla regional və qlobal təhlükəsizlik kontekstində diqqət çəkən hadisədir.

## Azərbaycan ilə BƏƏ arasında strateji hərbi tərəfdaşlıq dərinləşir

### Birgə əməliyyatların planlaşdırılması və icrası...

Qeyd edək ki, “Sülh Qalxanı-2026” Azərbaycan Respublikası Silahlı Qüvvələri ilə Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələri arasında keçirilən birgə hərbi təlimlər silsiləsinin növbəti və daha genişmiqyaslı mərhələsi kimi qiymətləndirilir. Təlimin əsas məqsədi birgə əməliyyatların planlaşdırılması və icrası zamanı qarşılıqlı fəaliyyətin artırılması, komanda-idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, şəxsi heyətin peşəkarlığının yüksəldilməsi və real döyüş şəraitinə maksimal yaxın ssenarilər üzərində praktiki bacarıqların sınaqdan keçirilməsidir. Fevralın 2-3-də reallaşan təlim çərçivəsində müxtəlif növ qoşunların qarşılıqlı əlaqəsi, müdafiə və hücum əməliyyatlarının sinxron icrası, taktiki manevrlər, xüsusi təyinatlı bölmələrin fəaliyyətinin koordinasiyası, pilotsuz uçuş aparatlarının tətbiqi və kəşfiyyat məlumatlarının operativ mübadiləsi kimi məsələlər üzərində xüsusi diqqət cəmlənib. Müasir döyüş konsepsiyalarına uyğun olaraq hibrid təhdidlərə qarşı mübarizə, kritik infrastrukturun qorunması və qeyri-ənənəvi təhlükə ssenariləri də təlim proqramına daxil edilib.

“Sülh Qalxanı-2026” təlimi həm də onu göstərir ki, Azərbaycan ordusu beynəlxalq standartlara uyğun fəaliyyət göstərmək qabiliyyətinə malikdir və müxtəlif coğrafiyalara məxsus silahlı qüvvələrlə effektiv şəkildə birgə əməliyyatlar həyata keçirə bilir. Bu cür təlimlər təkcə hərbi baxımdan deyil, eyni zamanda, siyasi və diplomatik müstəvidə də mühüm mesaj xarakteri daşıyır.

### BƏƏ ilə ikinci böyük hərbi təlim...

Yaxın dost, tərəfdaş dövlətlər sayılan Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında hərbi əməkdaşlıq uzun illərə söykənən və mərhələli şəkildə inkişaf edən bir prosesdir. İki ölkə arasında müdafiə sahəsində əməkdaşlıq haqqında imzalanmış sənədlər bu istiqamətdə hüquqi bazanı formalaşdırıb. İlk mərhələdə əməkdaşlıq əsasən təcrübə mübadiləsi, hərbi təhsil və müşahidə xarakterli fəaliyyətləri əhatə edirdisə, sonrakı illərdə bu əməkdaşlıq praktiki birgə təlimlər səviyyəsinə yüksəlib.

Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında indiyə qədər də hərbi təlim keçirilib. Ötən ilin oktyabrında ikitərəfli əməkdaşlıq planına əsasən, ölkəmizdə Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri (XTQ) və BƏƏ-nin Prezident Qvardiyasının Xüsusi Əməliyyat Komandanlığı bölmələrinin iştirakı ilə “Sarsılmaz Tərəfdaşlıq-2025” birgə xüsusi təyinatlı qüvvələr təlimi keçirilib. Təlim iştirakçıları real döyüş şəraitinə uyğunlaşdırılmış ssenarilər üzrə qarşılıqlı koordinasiya və idarəetmə bacarıqlarını praktiki olaraq inkişaf etdiriblər. Taktiki fəaliyyətlər zamanı iştirakçılar manevr qabiliyyətini, çeviklik və liderlik vərdişlərini təkmilləşdirərək, eləcə də hər iki ölkənin xüsusi təyinatlılarının təcrübəsindən bəhrələnərək, tətbiq edilən forma və üsulları mənimsəyiblər. Bu təlim zamanı Azərbaycan hərbçiləri həm də BƏƏ ordusunun yüksək texnoloji imkanları ilə tanış olub, eyni zamanda öz döyüş təcrübəsini təlimlərdə ölkə ilə bölüşüb. Xüsusilə Vətən müharibəsindən sonra Azərbaycan ordusunun qazandığı real döyüş təcrübəsi bu təlimlərə əlavə dəyər qatıb.

“Sülh Qalxanı-2026” isə bu ardıcıllığın kulminasiya nöqtələrindən biri kimi çıxış edir. Təlimlərin davamlılığı və məzmun baxımından dərinləşməsi Azərbaycan-BƏƏ münasibətlərinin sadəcə, dostluq deyil, strateji tərəfdaşlıq səviyyəsində olduğunu təsdiqləyir.

### Ordu quruculuğunun ən mühüm amili...




Azərbaycan Silahlı Qüvvələri hər zaman beynəlxalq statuslu və ya fərqli ölkələrin silahlı qüvvələri ilə birgə təlimlər keçirlər. Ötən il ərzində həm daxili, həm də beynəlxalq formatda bu tip çoxsaylı hərbi təlimlər keçirilib. Bu təlimlər ordunun döyüş hazırlığının artırılması, yeni silah sistemlərinin sınaqdan keçirilməsi və şəxsi heyətin peşəkar səviyyəsinin yüksəldilməsi məqsədi daşıyıb. Xüsusilə komanda-qərargah təlimləri, taktiki manevrlər və qoşun növləri arasında qarşılıqlı fəaliyyətin yoxlanılması əsas prioritetlər sırasında olub.

Məsələn, ötən ilin oktyabrında Özbəkistanın Səmərqənd vilayətində Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan və Özbəkistan hərbçilərinin iştirakı ilə baş tutan “Birlik - 2025” birgə regional təlimi, ötən ilin noyabrında Azərbaycan, Türkiyə və Gürcüstanın xüsusi təyinatlı bölmələrinin iştirakı ilə Ankara şəhərində keçirilən “Qafqaz Qartalı - 2025” birgə taktiki-xüsusi təlimi, ötən ilin sentyabrında ikitərəfli hərbi əməkdaşlıq planı çərçivəsində Daşkəndə “Məharət - 2025” kompüter dəstəkli birgə komanda-qərargah təlimi hərbi təkmilləşdirmədə mühüm rol oynayıb. Bu təlimlərdə pilotsuz uçuş aparatlarının geniş tətbiqi, yüksək dəqiqlikli silahların istifadəsi, kəşfiyyat və zərbə elementlərinin inteqrasiyası xüsusi yer tutub. Bu da Azərbaycan Ordusunun müasir müharibə konsepsiyalarına uyğun şəkildə inkişaf etdiyini göstərir. Eyni zamanda, müttəfiq və tərəfdaş ölkələrlə keçirilən birgə təlimlər beynəlxalq əməkdaşlıq imkanlarını daha da genişləndirib.

### Sülhün qorunmasına yönələn strateji addım

Birgə hərbi təlimlər, o cümlədən “Sülh Qalxanı-2026” geostrateji baxımdan xüsusi əhəmiyyət daşıyır və müasir təhlükəsizlik mühitində olduqca vacibdir. Hazırda dünyada davam edən və getdikcə dərinləşən konfrontasiyalar, rəqabət və regional münaqişələr fonunda hər bir dövlət öz təhlükəsizlik sistemini güc amili üzərində qurmağa məcburdur.

Azərbaycan bu reallığı düzgün qiymətləndirərək ordu quruculuğunu dövlət siyasətinin əsas prioritetlərindən birinə çevirib. Ordunun maddi-texniki bazasının gücləndirilməsi, şəxsi heyətin peşəkarlığının artırılması, müasir silah və texnologiyaların tətbiqi, eləcə də beynəlxalq hərbi əməkdaşlığın genişləndirilməsi bu siyasətin sütunlarını təşkil edir. “Sülh Qalxanı-2026” kimi təlimlər bir daha sübut edir ki, Azərbaycan regional təhlükəsizlik arxitekturasında məsuliyyətli və etibarlı aktor kimi çıxış edir. Bu, sülhün qorunmasına, qarşılıqlı etimadın möhkəmləndirilməsinə və mümkün təhdidlərin qarşısının alınmasına yönəlmiş strateji addımlardır.

**P.SADAYOĞLU**

# Yüksəksəviyyəli münasibətlərin yeni səhifəsi

## Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri əməkdaşlığın yeni gündəliyini müəyyənləşdirir

Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) səfəri ölkələrimiz arasında yüksəksəviyyəli iqtisadi münasibətlərin inkişafına töhfə verməklə müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanların əsasını qoyub. BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüş zamanı vurğulandığı kimi Azərbaycan-BƏƏ ikitərəfli əlaqələri strateji tərəfdaşlığa əsaslanır, ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə inkişaf edir. BƏƏ-nin dünya miqyaslı nəhəng korporosiayaları Azərbaycanda uğurla fəaliyyət göstərir.

Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi proqramların əsas xətti neft-qaz və enerji sahələri ilə yanaşı, qeyri-neft sektorunun bütün istiqamətlərini də əhatə etməkdədir. Bu ölkənin nəhəng investoru “Masdar” Azərbaycanda ən potensial investorlardan biridir, şirkət 230 meqavatlıq Qaradağ Günəş Elektrik Stansiyasına 262 milyon dollarlıq sərmayə yatırıb və stansiya 2 il əvvəl istifadəyə verilib. “Masdar”la imzalanmış digər sazişlərə əsasən, Biləsuvarda 445 MVt, Neftçalada 315 MVt gücündə iki günəş elektrik stansiyası və Qaradağda 240 MVt gücündə bir külək elektrik stansiyasının inşası nəzərdə tutulur. Ümumi sərmayə dəyəri 1 milyard dollar məbləğində qiymətləndirilən 3 layihənin təməlinin atılması bərpa olunan enerji sektorunda böyük sərmayə bumunun nümunəsi hesab edilə bilər. Bundan başqa, “Masdar”la SOCAR arasında Naxçıvan Muxtar Respublikasında 500 MVt gücündə bərpa olunan enerji layihələrinin inkişafına dair Anlaşma Memorandumu imzalanıb.



SOCAR ilə Birləşmiş Ərəb Əmirliklərinin “Emirates National Oil Company Group” (“ENOC Group”) arasında da sıx münasibətlər mövcuddur. Bir müddət əvvəl tərəflər kəşfiyyat, hasilat, rəqəmsallaşma, ticarət, marketinq istiqamətlərində əməkdaşlıq məsələlərini müzakirə edib. Tərəflər enerji sektorunun müxtəlif istiqamətləri üzrə, o cümlədən qarşı-



### Xəzərdə yeni neft anlaşması

Səfər çərçivəsində Azərbaycan və BƏƏ Prezidentlərinin iştirakı ilə “Cənub Qaz Dəhlizi” QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG şirkətinə satışı ilə bağlı alqı-satqı müqaviləsinə dair sənədin imzalanması isə enerji tərəfdaşlığının yeni nüminəsi hesab edilə bilər.

Qeyd edək ki, BƏƏ şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) arasında da əlaqələr intensiv xarakter alıb. Ötən ilin noyabrında SOCAR ilə BƏƏ-nin “Dragon Oil” şirkəti arasında imzalanmış Anlaşma Memorandumu əlaqələrin genişləndirilməsi baxımından mühüm önəm daşıyır. Dünya neft-qaz sənayesində tanınmış korporasiyalardan olan “Dragon Oil” Xəzər dənizində də istismar fəaliyyəti sahəsində təcrübə qazanıb. Xəzərin Türkmənistan sektorundakı 19-cu blokda neft-qaz quyusunda kəşfiyyat işləri apardıqdan sonra gündəlik 20 min barel neft hasil etmək üçün yatağın sınaq mərhələsində çalışan ərəb şirkəti “Türkmennebit” konserni ilə sıx əməkdaşlıq qurub. “Türkmennebit” və “Dragon Oil” arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, BƏƏ şirkəti “Çələkən” bloku yaxınlığında üç perspektivli yatağın işlənməsində ilk işlərə başlayıb. Bu baxımdan, “Dragon Oil”in Xəzər dənizində neft-qaz hasilatındakı təcrübəsi SOCAR-la əməkdaşlıq üçün də əhəmiyyət daşıyır.

SOCAR və BƏƏ-nin “Crescent Petroleum” şirkəti arasında da enerji sektorunun müxtəlif istiqamətləri üzrə əməkdaşlıq nəzərdə tutulur. Həmçinin, Dövlət Neft Şirkəti və Birləşmiş Ərəb Əmirliklərinin “AD Ports Group” şirkəti arasında neft və neftkimya məhsullarının logistikası üzrə əməkdaşlıq perspektivləri diqqətdə saxlanılır.

### SOCAR BƏƏ şirkətləri ilə əməkdaşlığı artırır

lıqlı maraq doğuran digər istiqamətlərdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıblar. “ENOC Group”un İdarə Heyətinin üzvü və baş icraçı direktoru Hussein Lutah isə vurğulayıb ki, son dövrlərdə BƏƏ ilə intensivləşən iqtisadi münasibətlər fonunda enerji infrastrukturu, “yaşıl enerji”, investisiyalar, ağıllı texnologiyalar, mədən sənayesi və digər sahələrdə birgə əməkdaşlıq və qarşılıqlı investisiyaların cəlb edilməsi daha da aktual mövzuya çevrilib.

Ərəb şirkətlərinin SOCAR və Energetika Nazirliyi ilə daha da möhkəmlənən əlaqələrində yeni enerji və hidrogen emalı, “yaşıl enerji” istehsalı məsələləri ön planda dayanır və praktiki addımlar atılmaqdadır.

### Ərəb şirkəti ölkəmizdə “ağıllı qaz” modelini quracaq

SOCAR-ın BƏƏ şirkətləri ilə əlaqələrinin digər istiqaməti metan qazının və qalıq yanacağın həcmlərinin azaldılması, bərpaolunan enerji və “ağıllı qaz” texnologiyalarının tətbiqi və digər sahələri nəzərdə tutur. Bir neçə ay əvvəl əldə edilmiş razılığa əsasən, BƏƏ-nin “Esyasoft Holding” LTD şirkəti ilə “ağıllı qaz” şəbəkəsinin layihələndirilməsi, qurulması və istifadəyə verilməsi haqqında müqavilə imzalanıb ki, layihənin əsas məqsədi qabaqcıl “ağıllı qaz” idarəetmə sistemi texnologiyalarının Azərbaycanda tətbiqini nəzərdə tutur. BƏƏ şirkəti Azərbaycan ərazisində qazın paylanması sahəsində əməliyyat səmərəliliyini artırmaq, xərcləri optimallaşdırmaq, mövcud qaz itkilərini azaltmaq üçün SOCAR-a dəstək verəcək. Layihə 2,5 milyon “ağıllı sayğac”ın quraşdırılması və sistemə dəstək mərhələləri nəzərə alınmaqla təxminən 14 illik dövrü əhatə edəcək. Bu dövr ərzində 480 milyon dollar sərmayənin yatırılması nəzərdə tutulur. Bu sərmayə yaxın gələcəkdə şəbəkənin rəqəmsallaşdırılmasının, “ağıllı təzyiq” və temperatur sensorlarının quraşdırılmasının, “Rəqəmsal həllər laboratoriyası”nın (Digital Solutions Lab) yaradılmasının, əməkdaşların qabaqcıl texnologiyalar üzrə təliminin və beynəlxalq təcrübə mübadiləsinin təşkilinin, süni intellektin tətbiqi, məlumatların “hökumət buludu”nda yerləşdirilməsi ilə informasiya təhlükəsizliyinin təmin olunmasının, eləcə də müasir texnologiyalarla təchiz edilmiş idarəetmə mərkəzinin qurulmasının mümkünlüyünə imkan verəcək.

Beləliklə, Azərbaycan Prezidentinin Birləşmiş Ərəb Əmirliklərinə səfəri ölkələr arasında qardaşlıq, dostluq üzərində qurulmuş əlaqələrin yüksək səviyyəyə çatmasına, imzalanmış çoxsaylı sənədlər isə iqtisadi-siyasi əməkdaşlıq proqramlarının həlledici mərhələyə daxil olmasına imkan yaradacaq.

*E.CƏFƏRLİ*

# Naxçıvanın inkişafı üçün mühüm islahatlar...

## Konstitusiya Qanununa dəyişikliklər bir sıra önəmli yenilikləri ehtiva edir

Ölkəmizdə həyata keçirilən islahatlar davamlı xarakter daşıyır. Dünyaya nümunəvi inkişaf modeli təqdim edən Azərbaycan özünün yaxın və uzaq hədəflərini konseptual əsaslarla müəyyənləşdirir. Bu zaman bir sıra fundamental amillər, o cümlədən ölkənin potensialı, mövcud reallıqları, yeni qlobal çağırışlar nəzərə alınır və uğurlu koordinasiya təmin edilir.

### Milli Məclis Konstitusiya Qanununu II oxunuşda qəbul edib

Ölkəmizin yeni reallıqlarına, möhkəm bazaya istinad edilməklə gələcək üçün daha mühüm hədəflərin müəyyənləşdirilməsi, inkişaf çərçivəsinin genişləndirilməsi artıq bir zərurət kimi çıxış edir. Azərbaycan qarşıdakı illərdə daha mürəkkəb çağırışların və zəngin imkanların mövcudluğu ilə seçilən yeni mərhələyə daxil olur. Bu mərhələ qlobal iqtisadi qütbləşmənin dərinləşməsi, texnoloji tərəqqinin sürətlənməsi, eləcə də süni intellekt əsaslı texnologiyaların geniş tətbiqi ilə səciyyələnir. Təbii ki, ölkəmizin reallıqlarına və yeni qlobal çağırışlara uyğun müəyyənləşdirliən strateji vəzifələrin uğurla həyata keçirilməsi, gözlənilən nəticələrin əldə olunması bir sıra amillərdən asılıdır. Bu həm də optimal idarəetmə mexanizmindən, kadrların çevikliyindən asılı olan bir məsələdir. Heç bir halda köhnə üsullarla yeni dövrün tələblərini ödəmək mümkün deyil. Nəzərə alaq ki, Prezident İlham Əliyevin siyasi iradəsi əsasında Azərbaycan müasirləşmə yolu tutub, hər sahədə ölkəmizin yüksək standartları müəyyənləşdirilib. Ona görə də, idarəetmə, siyasi və s. islahatlar ölkəmizin inkişafına xidmət edir.

Yeri gəlmişkən, Milli Məclisin fevralın 2-də keçirilən iclasında “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Konstitusiya Qanununun II səsvermədə qəbul olunması Muxtar Respublikanın idarəetmə sistemində vacib islahatları əks etdirir. Bəs sözügedən Konstitusiya Qanununda hansı məsələlər əksini tapır? Məsələ ilə bağlı Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qəzetimizə bildirib ki, ötən ilin may ayında Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında” Konstitusiya Qanunu qəbul edilib və təsdiq üçün Azərbaycan Respublikasının Milli Məclisinə göndərilib. Onun sözlərinə görə, Konstitusiya qanununun layihəsində Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına 2 yeni maddənin əlavə edilməsi, 1 maddənin çıxarılması, bir sıra maddələrdə, o cümlədən preambulada dəyişikliklər edilməsi nəzərdə tutulur. Belə ki, Azərbaycan Konstitusiyasının 134-cü maddəsinin III hissəsində qeyd olunan “Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir” müddəası tamamilə düzgün olaraq Naxçıvan Muxtar Respublikası Konstitusiyasının preambulasında da öz əksini tapacaq. Eyni zamanda, Konstitusiyaya əlavə edilməsi nəzərdə tutulan “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi” adlı 3-1-ci maddəyə əsasən Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan Muxtar Respublikasının ərazisində ölkə rəhbərinin müəyyən etdiyi vəzifələri yerinə yetirən icra orqanı kimi nəzərdə tutulur. Nümayəndəliyə rəhbərliyi dövlət başçısı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Prezidentin səlahiyyətli nümayəndəsi həyata keçirəcək. Bundan başqa, layihəyə əlavə edilən digər maddədə, yəni 28-1-ci maddədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin buraxılması məsələləri öz həllini tapır.



### Ali Məclis ölkə Prezidenti tərəfindən buraxıla bilər

Ə.Hüseynli qeyd edib ki, dəyişikliklərə əsasən Ali Məclisin 31 deputatının tələbi ilə və ya Konstitusiyanın müvafiq maddələrində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra edə bilmədikdə Ali Məclis ölkə Prezidenti tərəfindən buraxıla bilər: “Bu Konstitusiya qanununda vacib dəyişikliklərdən biri də “Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi” adlı 5-ci maddəsinin Konstitusiyadan çıxarılmasıdır. Bundan başqa, nəzərdə tutulur ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər Ali Məclis sədrinin təklifləri əsasında ölkə Prezidenti tərəfindən təyin edilsin. Həmçinin, layihədə Azərbaycan Prezidentinin, yaxud Azərbaycan Milli Məclisinin təklifi ilə Naxçıvan Ali Məclisinin sessiyasının qapalı iclasının keçirilməsi də nəzərdə tutulur. Konstitusiya qanunu layihəsinə əsasən, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər və Ali Məclis deputatlarının statusuna dair qanunların 31 səs çoxluğu ilə, digər məsələlərin isə 23 səs çoxluğu ilə qəbul olunacaq. Eləcə də, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilmək üçün nəzərdə tutulan Naxçıvanda 5 ildən az olmayaraq daimi yaşamaq tələbi aradan qaldırılır”.

### Əli Hüseynli: Dəyişikliklər Azərbaycan Konstitusiyasının unitarlığına tam uyğundur

Komitə sədri diqqətə çatdırıb ki, digər dəyişiklik Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyəti başçılarının Naxçıvan Ali Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Prezidenti tərəfindən vəzifəyə təyin olunması kimi vacib bir müddəadır. Bundan başqa, Konstitusiya qanununun layihəsinə əsasən Naxçıvan Nazirlər Kabineti Naxçıvan Ali Məclisinə tabe olmayacaq və iş qaydasını Azərbaycan Prezidenti ilə razılaşdırmaqla müəyyən edəcək. Həmçinin, sənəddə “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununa uyğun olaraq, Ali Məclis sədrinin aktlarının artıq qərar deyil, sərəncam adlandırılması nəzərdə tutulur. Nəhayət, layihəyə əsasən Ali Məclis Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında Konstitusiya qanunları deyil, qanunlar qəbul edəcək. Digər dəyişikliklər isə texniki xarakter daşıyır.

“Hesab edirəm ki, bu Konstitusiya qanunu Azərbaycan Konstitusiyasına, onun unitarlığına tamamilə uyğundur. Biz Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında mövcud olan, o cümlədən icra hakimiyyəti orqanına mənsub olan bir sıra səlahiyyətlərin qanunvericilik hakimiyyətində olması kimi ziddiyyətləri də aradan qaldırmış oluruq”,-deyə Ə.Hüseynli vurğulayıb.

Qeyd edək ki, qanunvericiliyə əsasən Konstitusiya qanunları Milli Məclisdə iki dəfə səsverməyə çıxarılır. “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Konstitusiya Qanunu da birinci dəfə ötən ilin növbədənkənar sessiyasında qəbul olunmuşdu. Bu səbəbdən ikinci səsvermə fevralın 2-də baş tutub.

*Nardar BAYRAMLI*

# YAP Mərkəzi Aparatında partiyanın İdarə Heyətinin üzvü Pərvin Kərimzadənin 50 illik yubileyi münasibətilə görüş keçirilib







Fevralın 3-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Pərvin Kərimzadənin 50 illik yubileyi münasibətilə görüş keçirilib.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, Pərvin Kərimzadə ölkəmizin ictimai-siyasi həyatında hər zaman fəal mövqeyi ilə seçilmiş və çoxillik elmi-pedaqoji fəaliyyətiylə gənc nəslin vətənpərvərlik ruhunda yetişməsinə mühüm töhfələr vermişdir: "Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür və İdarə Heyətimizin üzvü, Azərbaycan Respublikası Milli Məclisində partiyamızı təmsil edən deputat kimi milli-mənəvi dəyərlərin və dövlət maraqlarının qorunması istiqamətində şərəfli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram".

Göstərilən diqqətə və ünvanına söylənilən xoş sözlərə görə təşəkkürünü bildirən Pərvin Kərimzadə Ümummilli Lider Heydər Əliyevin əbədiyaşar ideyalarının, Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin və Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyətinin Azərbaycana möhtəşəm nailiyyətlər qazandırdığını, ölkəmizin tərəqqi və Zəfər zirvəsinə yüksələrək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayıb. O, bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səy və bacarığını əsirgəməyəcəyini diqqətə çatdırıb.

# Hindistanda siqhlərə qarşı cinayətlər...

## Bu cinayətlərlə bağlı "Who Are the Guilty?" adlı hesabat hazırlanıb

Bakı Təşəbbüs Qrupu (BTQ) dünyanın müxtəlif ölkələrində neokolonializmin yeni və təhlükəli təzahürlərini araşdırmaq və ifşa etmək istiqamətində nəticəyönümlü fəaliyyətini davam etdirir. Bu yöndə Fransanın, Belçikanın və digər dövlətlərin neokolonializm siyasətini ifşa etmək üçün mətinin BMT-nin "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt", "İrqçiliklə mübarizə üzrə beynəlxalq konvensiya" və "İşgəncələrə qarşı konvensiya" üzrə öhdəliklərinin etnik azlıqlara münasibətdə kobud şəkildə pozulması məsələləri də müzakirə olunub. Real vəziyyətin beynəl-




tədbirlər reallaşdırılır.

Xatırladaq ki, yanvarın 16-da ölkəmizdə ilk dəfə olaraq Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Hindistan hökumətinin etnik azlıqlara qarşı repressiv siyasətinə həsr edilmiş "Hindistanda siqhlərə və digər milli azlıqlara qarşı irqçilik və zorakılıq: mövcud reallıqlar" adlı beynəlxalq konfrans keçirilib. Konfransdan əvvəl 1984-cü ildə Hindistan hökuməti tərəfindən həyata keçirilmiş "Mavi Ulduz əməliyyatı"nda həlak olan siqhlərin xatirəsinə həsr edilmiş sərgi təşkil edilib. Tədbirdə BTQ tərəfindən hazırlanmış Hindistan hökumətinin siqhlərə qarşı törətdiyi hüquq pozuntuları və cinayətlər, eləcə də digər etnik azlıqların üzləşdiyi sistemli ayrı-seçkiliyə həsr edilmiş qısametrajlı film iştirakçılara təqdim edilib.

Dünyanın müxtəlif ölkələrini təmsil edən siqh icmasının nümayəndələri "Siqhlərə qarşı ayrı-seçkiliyin mənşəyi və siqh diasporunun azadlıq uğrunda mübarizəsi" mövzusunda geniş fikir mübadiləsi apardılar. Hindistan hökumətinin repressiv siyasəti nəticəsində doğma vətənlərini tərk edərək, hazırda Kanada, ABŞ, Böyük Britaniya və digər ölkələrdə məskunlaşmış siqhlərin və digər azlıqların vəziyyəti, siqh fəallarına qarşı dövlət səviyyəsində terror aktları, eləcə də Hindistanda təzyiq və məhdudiyyətlərlə üzləşən siqh icmasının əsas siyasi, hüquqi və təhlükəsizlik problemləri müzakirə olunub. Hindistanın zorakılıq, hədə-qorxu siyasətinin yaratdığı regional və beynəlxalq təhlükəsizlik riskləri və bu hallara qarşı beynəlxalq hüquq mexanizmlərindən istifadə imkanları qeyd edilib.

Konfransda Hindistan hökuxalq təşkilatların gündəliyində saxlanılması və müvafiq qərarların qəbul olunmasına çağırış edilib. BMT-nin İnsan Hüquqları Komitəsi tərəfindən Hindistanda etnik azlıqların pozulmuş hüquqlarının sənədləşdirilməsi və beynəlxalq monitorinqə çıxarılması imkanları ətrafında diskussiyalar aparılıb.

Beynəlxalq və yerli qeyri-hökumət təşkilatlarının və akademik çevrələrin bu prosesdə rolu, onların hazırladığı hesabatların, hüquqi rəylərin və tövsiyələrin beynəlxalq qərar qəbuletmə mexanizmlərinə təsiri imkanları da müzakirə mövzusu olub. Eləcə də, zorakılıqda iştirak edən siyasətçilərin, polis məmurlarının məsuliyyətə cəlb olunması, sağ qalanlara ədalət və təzminatın təmin edilməsi, şahidlərin qorunması və güclü antizorakılıq qanunlarının qəbulu tələb edilib.

Tədbirin sonunda Bakı Təşəbbüs Qrupu (BTQ) və Beynəlxalq Siqh Federasiyası Hindistanda siqhlərə və digər azlıqlara qarşı zorakılıq və ayrı-seçkiliyə qarşı qlobal səviyyədə fəaliyyətə çağırış edib.

Yeri gəlmişkən, bugünlərdə "Who Are the Guilty?" adlı hesabat da yayılıb. Bu hesabat Hindistanın iki nüfuzlu insan haqları təşkilatı - Vətəndaş Azadlıqları Uğrunda Xalq Birliyi (People's Union for Civil Liberties, PUCL) və Demokratik Hüquqlar Uğrunda Xalq Birliyi (People's Union for Democratic Rights, PUDR) tərəfindən birgə hazırlanmış müstəqil fakt araşdırma sənədidir.

Bakı Təşəbbüs Qrupundan bildirilib ki, sənəd 1984-cü il qətliamlarının baş verdiyi ərazilərdə aparılmış araşdırma əsasında hazırlanıb. Hesabatın əsas məqsədi 1984-cü il oktyabrın 31-də paytaxt Dehli və ətraf ərazilərində siqh icmasına qarşı törədilən sistemli kütləvi zorakılıq hadisələrini obyektiv şəkildə araşdırmaq, bu hadisələrin səbəblərini, təşkilatlanma mexanizmlərini, icraçıların və sosial-siyasi nəticələrini sistemli təhlil etməkdir.

Hesabat Hindistan hökumətinin zorakılıqlarından və təqiblərindən canını qurtarıb sağ qalanlar, şahidlər, qaçqın düşərgələrində işləyən şəxslərin, polis və administrasiya nümayəndələrinin, həmçinin siyasi rəsmilərin müsahibələri əsasında qurulub. Hesabatın əsas nəticəsi ondan ibarətdir ki, rəsmi açıqlamalardan fərqli olaraq, baş verən zorakılıqların hökumət qüvvələri tərəfindən əvvəlcədən planlaşdırıldığı və təşkil olunduğu sübuta yetirilsin.

Zorakılıq aktlarının pik həddi 1984-cü il noyabrın 1-3-də qeydə alınıb. Araşdırma qrupu birbaşa şahid ifadələrinə əsaslanaraq təkcə Dehlidə ümumi qurban sayının 1000 nəfərdən çox olduğunu bildirir. Dehlinin Trilokpuri və Manqolpuri rayonlarında yüzlərlə ölüm hadisəsi baş verib. Zorakılığın sosial və iqtisadi nəticələri də genişmiqyaslı olub. Rəsmi məlumatlara görə, yardım düşərgələrində 20 min nəfər qeydiyyata alınsa da, faktiki olaraq 50 mindən çox şəxs evsiz qalıb və köçkün vəziyyətinə düşüb. Minlərlə insan öldürülüb, çoxsaylı şəxslər isə ağır bədən xəsarətləri alıblar. Psixoloji təsirlər uzunmüddətli xarakter daşıyıb, sağ qalmış şəxslərin əksəriyyəti ağır travma keçirib, evlərinə qayıtmaqdan imtina edib və dərin ruhi çətinliklərlə üzləşiblər.

Hesabata əsasən, 20-50 yaşarası gənc siqh kişiləri evlərindən zorla çıxarılıb, döyülmə, bıçaqlanma, linç edilmə və ya diri-diri yandırılma (adətən kerosin və ya benzinlə sulandıqdan sonra, bəzən boyunlarına təkərlər taxılaraq) kimi son dərəcə qəddar üsullarla qətlə yetiriliblər. Eyni zamanda, geniş miqyasda qarət aparılıb, evlər, mağazalar, gurudvaralar (siqh məbədləri) və məktəblər yandırılıb, habelə qrup zorlamaları törədilib ki, bunlardan 14-50 yaşarası qadınlara qarşı ən azı dörd hal sənədləşdirilib.

Hesabat bu hadisələrin sistemli xarakterini və dövlət qurumlarının məsuliyyətini nəzərə alaraq dərhal müstəqil məhkəmə araşdırmasının aparılmasını və məsul şəxslərin cəzalandırılmasını tələb edib. Bu tələblər sonradan Mishra (1985) və Nanavati (2005) komissiyalarının yaradılmasına təsir göstərsə də, cəzasızlıq mühiti hələ də davam edir. Belə ki, siqhlərə qarşı törədilmiş qanlı hadisələrə görə məmurların və siyasi fiqurların heç biri cəzalandırılmayıb.

Hindistan hökumətinin törətdiyi qırğınlar beynəlxalq insan haqları təşkilatları tərəfindən "dövlət səviyyəsində təşkil olunmuş qırğın" (organized carnage) kimi xarakterizə olunub və bu kontekstdə geniş şəkildə istinad edilən əsas sənədlərdən biri kimi qəbul edilir.

*N.BAYRAMLI*

# 162 xidmət bir pəncərədə

## Daha 14 regional DOST mərkəzi yaradılacaq

Dövlət idarəçiliyində şəffaflığı və əlçatanlığı artırmaqla vətəndaş məmnunluğunun getdikcə daha da yüksəldilməsinə nail olmaq Azərbaycanın əsas hədəfləri sırasında yer alır. Bu məqsədlə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında ardıcıl şəkildə struktur islahatları aparılır, bacarıqlı, işgüzar, müasir düşüncəli və milli ruhlu kadrlar hökumətdə yüksək vəzifələrə irəli çəkilirlər. Bu baxımdan respublikamızda "ASAN xidmət" modeli əsas götürülməklə yaradılan DOST (Dayanıqlı və Operativ Sosial Təminat) mərkəzləri yaxşı nümunədir. Prezident İlham Əliyev DOST mərkəzlərini Azərbaycanın müasir siması kimi səciyyələndirib.

Müxtəlif xidmətləri vətəndaşlara eyni məkanda təqdim edən "DOST" mərkəzləri qısa zaman kəsiyində bütün ölkə üzrə böyük populyarlıq və rəğbət qazanıb. Qurumun əhatə etdiyi coğrafiyanın davamlı olaraq genişlənməsi bunu əyani şəkildə təsdiqləyir. DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov 2025-ci ilin yekunları və 2026-cı ilin hədəfləri üzrə keçirilən mətbuat konfransında çıxışı zamanı qurumun əldə etdiyi uğurlara və perspektiv planlara diqqət çəkib.

**DOST mərkəzlərinin əhatə dairəsi genişlənir**

DOST mərkəzləri Azərbaycanın sosial dövlət konseptinə uyğun olaraq həyata vəsiqə qazanıb. Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində 2019-cu ilin may ayından fəaliyyətə başlayan DOST Agentliyi yaradılıb. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata vəsiqə alan DOST konsepsiyasının təməlində vətəndaş məmnunluğunun təmin edilməsi amili dayanır. Konsepsiya əhaliyə müxtəlif sosial xidmətlər göstərən dövlət təsisatları ilə vətəndaşlar arasında bütün baryerlərin aradan qaldırılmasına, onlara qurumun adında da ifadə edildiyi kimi dostcasına xidmət göstərilməsinə, rəqəmsallaşma yolu ilə şəffafllığın artırılmasına hesablanıb.

İndiyədək Bakıda və bölgələrdə 7 DOST Mərkəzi, 2 DOST filialı, "Smart DOST" xidmət məntəqəsi, 2 DOST məntəqəsi istifadəyə verilib. Qurumun əhatə dairəsinin genişləndirilməsi davamlı olaraq diqqət mərkəzində saxlanılır. Ötən il Qarabağ Regional DOST Mərkəzinin Kəlbəcər və Füzuli xidmət məntəqələri, cari ilin yanvar ayında isə Tərtər filialı istifadəyə verilib.

F.Məmmədov bildirib ki, hazırda Naxçıvan, Quba, Sabirabad, Sumqayıt, Gəncə və Masallıda da DOST mərkəzlərinin, habelə bir sıra bölgələrdə DOST filiallarının yaradılması üçün layihə, təmir-tikinti işləri aparılır. Qurum rəsmisinin sözlərinə görə, Azərbaycanda 2030-cu ilədək 14 regional DOST mərkəzi və 64 filialın istifadəyə verilməsi nəzərdə tutulub.

**İki yeni xidmət təklif olunur**

Hazırda DOST mərkəzlərində əmək və məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik və reabilitasiya, pensiya, sosial sığorta və s. üzrə xidmətin "bir pəncərə"dən operativ, şəffaf və nəzakətli, vətəndaş rahatlığı prinsipi əsasında göstərilməsi təmin edilir. Çevik və nəzakətli xidmətə görədir ki, vətəndaşlar bu sosial xidmət qurumlarına məmnuniyyətlə üz tuturlar. Fərid Məmmədovun məlumatına əsasən, 2025-ci ildə DOST mərkəzlərində 900 minə yaxın, ümumilikdə, ötən dövrdə isə 4,1 milyondan çox vətəndaşa xidmət göstərilib. Vətəndaşların DOST xidmətlərindən məmnunluq səviyyəsi 98 faizdən çoxdur. "Gün ərzində vətəndaşlara 3700-dən çox xidmət göstərmişik. Bir vətəndaşa 11 dəqiqə müddətində xidmət göstəririk. Beynəlxalq səviyyədə bu göstərici 15-17 dəqiqədir. İndiyədək 8, 3 milyon zəng cavablandırılıb. 2025-ci ildə 1, 5 milyon zəngə bunun əyani təsdiqidir. Fərid Məmmədov bildirib ki, Agentlik indiyədək 36 beynəlxalq keyfiyyət və mükəmməllik sertifikatına layiq görülüb. Ötən il DOST modelinin Rumıniya, Serbiya və Xorvatiyada tətbiqi məqsədilə bu ölkələrin müvafiq qurumları ilə işgüzar əlaqələr qurulub, "bir pəncərə" sisteminin tətbiqi istiqamətində Özbəkistan və Moldova ilə əməkdaşlıq davam etdirilib. 2025-ci ildə həmçinin DOST Agentliyinin təşəbbüsü ilə Bakıda "SOCGOV 2025: Süni intellekt insan və transformasiya üçün" adlı beynəlxalq konfrans keçirilib. 20 ölkədən 430 nəfərə yaxın şəxsin iştirak etdiyi konfransın məqsədi yerli və beynəlxalq ekspertləri bir araya gətirməklə sosial xidmətlər sahəsində sürətli inkişaf perspektivlərinin qiymətləndirilməsi, innovativ yanaşmaların, süni intellekt alətlərinin və müasir tex-




cavab verilib",- deyə qurum rəsmisi vurğulayıb.

DOST mərkəzlərində göstərilən xidmətlərin sayının artması da mühüm uğurlardan biridir. Məlum olduğu kimi, Prezident İlham Əliyevin 29 dekabr 2025-ci il tarixli Fərmanına əsasən bir sıra qanunvericilik aktlarında dəyişiklik edilməklə, eyni zamanda DOST mərkəzlərində göstərilən xidmətlərin siyahısına daha iki xidmət əlavə edilib. Bununla da cari il yanvarın 1-dən vətəndaşlara göstərilən xidmətlərin sayı artaraq 160-dan 162-yə çatıb.

Həmin xidmətlərə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta ödənişlərinin təyin edilməsi, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə arayışlar verilməsi daxildir.

Xatırladaq ki, qanunvericiliyə edilmiş yeni dəyişikliklər dövlət sektoru üzrə işçilərin istehsalat qəzaları, peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsindən icbari sığortalanması və sığorta ödənişlərinin 2026-cı il yanvarın 1-dən Dövlət Sosial Müdafiə Fondu vasitəsilə həyata keçirilməsini nəzərdə tutur. DOST mərkəzlərində göstərilən xidmətlərin siyahısına əlavə edilmiş iki xidmət də bununla əlaqədardır.

**DOST təcrübəsi beynəlxalq arenada**

DOST mərkəzlərinin uğurlu fəaliyyəti beynəlxalq səviyyədə də təqdir olunur. Agentliyin müxtəlif beynəlxalq mükafatlara layiq görülməsi və ayrı-ayrı ölkələrdə DOST təcrübəsinin öyrənilməsi nologiyaların tətbiq edilməsi ilə gələcək inkişaf yollarının müəyyənləşdirilməsi olub.

DOST Agentliyi 2022-ci ildə LRQA sertifikatlaşdırma təşkilatı tərəfindən 4 istiqamət üzrə ISO sertifikatları alıb. Son olaraq isə qurum 3 istiqamət üzrə ISO sertifikatlarına layiq görülüb. Agentlik Böyük Britaniyanın "GCL International" sertifikatlaşdırma təşkilatı tərəfindən ISO 9001:2015 (Keyfiyyət İdarəetmə Sistemi), ISO 10002:2018 (Müştəri məmnunluğunun təmin edilməsi və şikayətlərin idarə edilməsi), həmçinin Türkiyənin "MSC" sertifikatlaşdırma təşkilatı tərəfindən ISO 37001:2025 (Korrupsiyaya qarşı idarəetmə sistemi) üzrə bütün mərhələləri uğurla keçib.

Proseslərə hazırlıq və standartların tətbiq edilməsinə Agentliyin müxtəlif struktur bölmələrinin işçi heyəti cəlb edilib. Standartlar Agentlikdə İnteqrədilmiş Menecment Sistemi olaraq tətbiq olunub. Qeyd edilən istiqamətlər üzrə keçirilən audit zamanı Agentliyin fəaliyyətində heç bir uyğunsuzluq aşkarlanmayıb və bu səbəbdən beynəlxalq sertifikatlara layiq görülüb.

"GCL International" idarəetmə sistemləri üzrə audit və sertifikatlaşdırma sahəsində ixtisaslaşmış beynəlxalq qurumdur və təqdim etdiyi sertifikatlar Böyük Britaniyanın rəsmi akkreditasiya orqanı olan "UKAS" tərəfindən təsdiq olunur.

ISO sertifikatları 2028-ci ilin sonunadək etibarlı hesab edilir. Bu standartların tətbiqi DOST Agentliyi və "DOST" mərkəzlərinin işini daha da yaxşılaşdırmağa, xidmət keyfiyyətini yüksəltməyə imkan verəcək.

*Mübariz ABDULLAYEV*

# Mehdiyevin təqibləri, açıq düşmənçiliyi...

## İnsanda (özü də rəhbər işçidə!) bir insana qarşı nə qədər qərəz, kin-küdurət, məkr ola bilərmiş?!



Hidayət

əvvəli ötən saylarımızda

## "Boz kardinal"ın "kardinallıq" azarı"... Yaxud Siz kimsiniz, R. Mehdiyev?

-Nə üçün Yaponiyada? - Prezident soruşdu.

Mən yerli-yataqlı cavab verməyə çalışdım: Mirzə Fətəli Güney Azərbaycanda, Xamneidə anadan olub. Anası onun üstünə günü gətirilməsinə dözməyib Fətəlinin atasından ayrılır. "Bölgüyə" görə uşaq atası ilə qalmalı imiş... Anası gecəyarı Şəkiyə yola çıxanda ögey bacıları haray salırlar: "Fətəli, anan gedir!". Fətəli yuxudan oyanıb çox çılğınlıq edir, evdəkilər qorxurlar - uşağın başına iş gələ bilər. Deyirlər: "Anası ilə getsin, sonra qaytararıq". Fətəli anası ilə Şəkiyə gəlir və daha ora qayıtmır. Görkəmli yazıçı, böyük mütəfəkkir olandan sonra yazırdı: "Mən Mirzə Fətəli Axundov olduğum üçün o ögey bacılarıma minnətdaram. Əgər onlar həmin gecə məni yuxudan oyatmasaydılar, Xamneidə qalıb ən çoxu qəzəlxan olacaqdım".

Bu, həqiqətdir. Mirzə Fətəli ərəb əlifbasından qurtulmaq, Azərbaycan qrafikalı latın əlifbası yaratmaq və ona keçmək məsələlərini müzakirə etmək üçün Güney Azərbaycana gedəndə bacılarına baş çəkir. Əziz Əliyev 1942-ci ildə Güneydə çalışanda da xidməti işləri başından aşsa da, Xamneyə getməyə, onlarla görüşməyə, ehtiyacları ilə maraqlanmağa, kömək etməyə vaxt tapır. Sonra... Axundzadələr nəslindən qalanlar Yaponiyaya gedirlər, kötücə də ordan gəlmişdi. Amma indi heç bir məlumat ala bilmədik...

Başqa məsələlərdən də geniş danışdım. Prezident dinləyir və suallar da verirdi. Hazırlığın gedişində razı qaldığı hiss olunurdu. O müşavirədə yalnız mən danışdım və Prezidentin arabir verdiyi suallar da mənə ünvanlanırdı... Müşavirədən sonra iş otağıma çatan kimi İşlər İdarəsinin müdiri mənə telefon açdı: "Prezident Sizin xətrinizi çox istəyir" - dedi.

Zarafatla soruşdum: "Nədən bildiniz?". Dedi: "Kim o qədər danışsaydı, sözünü kəsərdi". İşlər İdarəsinin müdiri 4 gün öncə o "üçlüyün" təxribat törətmək cəhdlərindən və Prezidentin dərhal əsl həqiqəti görməsindən, onlara sərt münasibət bildirməsindən xəbərsiz idi...

İndicə dediyim kimi, iş otağıma çatan andan heç nə baş verməmiş kimi hazırlıq işlərini davam etdirdim, səfirlərimizə, diasporlarımızın rəhbərlərinə zəng zəng dalınca çalındı, müvafiq yazışmalar... Onu da deməliyəm: bütün doxsanıncı illər boyu (qurultayın keçirilməsinə ümidimin azaldığı vaxtlarda!) xaricdəki soydaşlarımızın təşkilatlanması, bir araya gəlmələri, milli qayə ətrafında sıx birləşmələri problemləri ilə ardıcıl məşğul olurdum. Ulu Öndərin müvafiq sərəncamından sonra isə hər günümün əsas mövzularından idi. Bu sahədə görülən işlərin hamısı bir yazıya sığmaz. Ona görə iki-üç fakt deməklə kifayətlənirəm: Qurultay Respublika Sarayında işinə başladı, möhtəşəmliyin son dərəcəsində keçdi. Təsəvvür edək - həmin dövrdə dünya ölkələrində 300-dən çox azərbaycanlı icması - təşkilatı fəaliyyət göstərirdi və qurultaya onların hamısından 403 nümayəndə gəlmişdi, nümayəndələrin ümumi sayı isə - 1105 nəfər idi.

Qurultayın birinci günündə Prezidentin tarixi çıxışı xaricdəki soydaşlarımızın ömürlük milli şüur məramnaməsi oldu. Qurultay ikinci gün 5-6 seksiyada işini davam etdirirdi. Seksiyaların hamısına baş çəkdim - mövzuya vurğunluq, məmnunluq, sevinc coşğunluğu plenar iclasdan seçilmirdi. Növbəti plenar iclasda dinlədiklərimiz isə milli şüurumuzun bəyannaməsi idi!

Sonra "Gülüstan"da möhtəşəm ziyafət - üzlərdə təbəssüm, ürəklərdə Vətən məhəbbəti!

Ziyafətin sonunda bir çox xarici nümayəndələr Prezidentə yanaşdılar, söhbət etdilər. Mən yaxınlıqda dayanmışdım. Düşünürdüm - Prezidentin tapşırığı ola bilər. Amma tapşırıq ertəsi günə qalmalı imiş.

Prezident Aparatdan 4-5 yüksək vəzifəli şəxsi qəbul etdi. Qurultayın yüksək səviyyədə təşkil olunması üçün təşəkkürünü bildirdi. O vaxtacan ölkədə çox regional və beynəlxalq miqyaslı böyük tədbirlər keçirilmişdi, ancaq ilk dəfə idi ki, belə təşəkkür edilirdi. Sonra üzünü mənə tərəf tutdu: "Gülüstan"da bir çox nümayəndələr qəbul üçün mənə müraciət etdilər. Siz onları bir-bir qəbul edin. Baxın, kimlər Sizin qəbulunuzla kifayətlənməyib mənlə görüşməyə maraqlı olsalar, deyin, qəbul edim. Yox, Sizin qəbul etməyinizlə qane olarlarsa, onda ehtiyac yoxdur".

Dedim: "Aydındır, cənab Prezident!".

Prezident yeni tarixi qərar verəcəyini də onda açıqladı: "Qurultay göstərdi ki, xaricdə yaşayan soydaşlarla bağlı dövlət qurumu yaratmağa ciddi ehtiyac var" və az sonra müvafiq Dövlət Komitəsi yaratdı.

Qonaqlar o illərdə Bakının ən yaxşı otellərindən olan "Avropa"da qalırdılar, onlara da bir rəhbər nümayəndə seçilmişdi. Siyahını tərtib edib təqdim etdilər - baxdım - çox uzun siyahı idi. Onların oteldə qalma vaxtı bizim hesaba bir həftə də uzadıldı. Səhər saat 10-dan axşam 7-yə qədər onları bir-bir qəbul etdim. Hamısı heyranlıq içində idi - elə razılıq edirdilər, minnətdarlıqlarını bildirirdilər, deyirdilər biz Vətəndən arxası, dayağı olan azərbaycanlı kimi gedirik. Bir nümayəndə də narazı getmədi, bir nəfər də demədi ki, onu Prezident qəbul etsin. Hamısında o da aydın hiss olunurdu ki, qurultay onlara bundan sonra Azərbaycançılıq məfkurəsi naminə daha səylə, daha ehtirasla işləməyə yeni impuls, güc, qüdrət verib.

Sonra bizim xarici ölkələrdəki səfirlərimizdən təşəkkür, təbrik zəngləri bir-birinin ardınca gəlirdi, fantastik təriflər, yüksək fikirlər... Onların dediklərini açmıram, bircəsindən başqa: Fransadakı səfirimiz Elenora xanım (soyadını unutmuşam) Prezident Aparatının şöbə müdiri Salman Cəfərovla birlikdə yanıma gəldilər (onlar yaxın qohum idilər). İçəri daxil olan kimi Elenora xanım salamdan öncə "naçionalnıy geroy" dedi. Mən də cavabımda "Milli Qəhrəman möhtərəm Prezidentimizdir!" - söylədim. Sonra Elenora xanım Fransadan qurultaya gələnlərin heyranlıq təəssüratlarından xeyli danışdı. Belə rəylər dünyanın hər yerindən gəlirdi.

Bu epizod üzərində niyə çox dayandım? Qurultaya hazırlıq mənim şəxsi işim deyildi, öz marağım barədə söhbət gedə bilməzdi, dövlətimin, millətimin möhtəşəm tədbiri idi. Mehdiyev başda olmaqla bəzilərinin köməyi bir yana qalsın, bu vəzifəni layiqincə yerinə yetirənə mane olmaq? Məni Prezidentin gözündən salmaq üçün yalanlara, dezinformasiyalara əl atmaq? Nə üçün?.

Belə antidövlət "ssenarilərini" mənə qarşı tez-tez hazırlayırdılar. "Tamaşaya" qoymağa cəhd edirdilər, heç biri alınmırdı, amma yenə sakitləşmirdilər, əl çəkmirdilər.

Allah Ulu Öndərimizə rəhmət eləsin, cənab Prezidentə cansağlığı versin!

İnsanda (özü də rəhbər işçidə!) bir insana qarşı nə qədər qərəz, kin-küdurət, məkr ola bilərmiş?! Özü də bir də vurğulayıram - gördüklərim mənim şəxsi işim deyildi - özümün nə marağım ola bilərdi? Dövlətin işiydi, millətin işiydi!.

Mən 39 yaşımacan Qərbi Azərbaycanda yaşamışam, 23 yaşımda ikən çox yüksək, məsul vəzifə tutmuşam, dövlət vəzifəmdən əlavə, milli ədəbi mühitimizə başçılıq etmişəm. Ermənilər (respublikanın rəhbəri Karen Demirçiyan da!) mənim milli şüurumdan (onların dili ilə desək, millətçiliyimdən, türkçülüyümdən) çox narahat olublar.

Ancaq başımın üstündə Allahım ola-ola deyə bilmərəm ki, erməni şovinistləri məni işləməyə qoymurdular. Rəhbərlik etdiyim, indi 150 yaşı yaxınlaşan İrəvan Dövlət Azərbaycan Dram Teatrı mütəxəssislərin fikrincə, mənim rəhbərliyim dövründə zəngin tarixinin ən şərəfli, intibah illərini yaşadı. Qərbdə milli mədəniyyətimiz, ədəbiyyatımız heç vaxt görünməmiş dərəcədə inkişaf etdi, mən özüm şair-dramaturq, nasir, publisist kimi geniş tanındım. Sovetlər Birliyinin, Azərbaycanın, Ermənistanın yüksək dövlət mükafatlarına, fəxri adına layiq görüldüm. Ermənilər məni "millətçi" olduğum üçün təqib etməyə can atsalar da.

Bəs bizdə? Özümüzünkülər? Əgər Mehdiyevin təqibləri, qərəzləri, açıq düşmənçiliyi yalnız o möhtəşəm qurultayın hazırlığı ilə bağlı olsaydı, bəlkə də bu epizod üstündə bu qədər dayanmazdım. Yox, hər addımda təqib, mane olmaq, işləməyə qoymamaq cəhdləri. Özü də bu işlərin demək olar hamısı xalqımızın və dövlətimizin taleyüklü məsələləri idi. Belə taleyüklü məsələlərdən heç olmasa biri üzərində də dayanmamaq olmur. Öncə onu birmənalı şəkildə ürəyimin hökmü ilə bir daha bəyan edirəm - mən gənclik illərimdən gürcü xalqını və bütöv Gürcüstanı çox sevirəm. Hələ gənclik çağlarımdan - İrəvanda çalışdığım zamanlardan.

Uşaqlıq illərində gürcü filmlərinin, "Bəbir dərili cəngavərin"in qəhrəmanları yol yoldaşlarım olurdular. İrəvanda ötən gənclik illərimdə rəhbərlik etdiyim Dövlət Teatrımızın azı iki ildən bir baş tutan Tbilisi, qonşu ölkənin müxtəlif bölgələrinə yüksək səviyyəli qastrol səfərləri bu dəyərli qonşularımızı mənə yenidən sevdirdi. Məhz o illərdə yazdığım, yarım milyonadək tirajı olan "Azərbaycan gəncləri" qəzetində çap etdirdiyim (sonra gürcü dilində dərc edilən) "Tbilisiyə məktub" essem hədsiz maraq doğurdu. Siyasi vəzifəyə keçəndən sonra qonşu ölkəylə daha ciddi, daha sıx əlaqələrimiz, birgə əməkdaşlığımız oldu. Mənim gürcü xalqına münasibətim ayrıca, bu yazıdan da irihəcmli mövzudur. Ona görə böyük dövlət xadimi Eduard Şevardnadzenin sözlərini xatırlayaraq bu yazının mətləbinə keçmək istəyirəm:

"...Xalqlarımızın layiqli və görkəmli oğullarının şəxsi dostluğu da hamıya məlumdur. Mirzə Fətəli Axundov və Akaki Seretelinin dostluq münasibətlərini qeyd etmək yerinə düşərdi. Bu ənənə xalqlarımızın ən ağır dövrlərində də davam etdirilmişdir. Səməd Vurğunla Georgi Leonizde, Hidayət Orucovla Quram Pançikadze bu gözəl ənənələrin parlaq davamçılarıdır".

Eduard Şevardnadze çıxışında mənim fəaliyyətimi çox yüksək dəyərləndirəndən öncə - 17 dekabr 2002-ci ildə imzaladığı sərəncamla Gürcüstan və Azərbaycan arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində mühüm xidmətimə, Gürcüstan mövzusunda yaratdığım bədii əsərlərimə, gürcü ədəbi irsini yüksək professional səviyyədə tərcümə və nəşr etdirdiyimə görə məni ölkəsinin yüksək mükafatı "Ləyaqət" ordeni ilə təltif etmişdi.

Əlavəyə ehtiyac yoxdur. Bircə onu deyim ki, mən siyasi vəzifələrdə ola-ola Tbilisidə gürcü dilində 2 şeir kitabımı nəşr etdilər. Zarafatla deyirdim ki, "gürcü dostlarım yadıma salırlar ki... mən yazıçıyam!". Gürcü ziyalıları, yazıçıları haqqımda çox yüksək fikirlər söyləyirlər. Son vaxtlar Gürcüstan Yazıçılar İttifaqının sədri Makvala Qonaşvilidən aldığım məktub sətirləri: "Hər bir gününüz Vətənlə, Sülhün hakim olduğu dünya ilə müşayiət olunur. Biz həmkarlarınız üçün Siz müdriklik, istedad və səxavət rəmzisiniz. Siz Gürcüstanın əsl dostu və gürcü yazıçılarının ən əziz həmkarısınız!".

Mənim gürcü xalqına tükənməz məhəbbətim haqqında danışmağıma burda nöqtə qoymaq istəyirəm. Çünki nə qədər danışsam da, ürəyim yenə dolu qalacaq. Lakin... Gürcüstanda gürcü familyası altında milli mənsubiyyətini danan və özlərini gürcü elan edən çoxsaylı erməni əsilli, radikal erməni millətçisi vətəndaşlar var. Onların bəziləri Prezident Aparatında, Parlamentdə, Hökumətdə, o illərdə mənim əziz dostum Sandro Kafsadzenin sədri olduğu Millətlərarası Münasibətlər üzrə Dövlət Komitəsində, digər dövlət qurumlarında özlərinə "rahat yer" tutmuşdular və hər sahədə xalqımız, dövlətimiz üçün problemlər yaratmağa cəhd edirdilər. Əsas təcavüzkar, təxribatçı istiqamətlər bunlar idi: soydaşlarımızın Gürcüstandan deportasiyasına nail olmağa, ölkəmizdə yaşayan gürcülərin guya, hüquqlarının pozulması barədə ardıcıl dezinformasiyalar yaymaq, hətta Şimal-Qərb bölgəmizə arınmaz-arınmaz ərazi iddiası, bununla birlikdə bölgədə yaşayan inqiloyların gürcü kimi tanınması və IV əsrə aid Gürmük məbədinin (qədim adı - Ay Məbədi) gürcü məbədi kimi təqdim olunması... Erməni əsilli "gürcülər" bu təxribatçı yozumlarını hətta ictimailəşdirməyə, E.Şevardnadzeyə müxalifətdə olan qrupları da bu təxribatlara qoşmağa cəhd edirdilər. Digər çoxsaylı problemlərlə bağlı işim başımdan aşsa da, ildə üç-dörd dəfə Şimal-Qərb bölgəmizdə, iki-üç dəfə Gürcüstanda olurdum, çox gərəkli işlər görülürdü, layihələr həyata keçirilirdi. Bir acı faktı heç vaxt unutmuram: mən tutduğum vəzifədə siyasi-rəsmi 1993-cü ilin payızında ilk dəfə Gürcüstana gedəndə oranı artıq 82 min soydaşımız tərk etmişdi, qalanlarının isə necə deyərlər - çamadanları əllərində idi. Biz Sandro Kafsadze ilə bir həftəyədək yalnız Tbilisidə və ətrafdakı bölgələrdə deyil, soydaşlarımız yaşayan bütün rayonlarda olduq, həm soydaşlarımızla, həm də rəsmi dairələrlə görüşlər keçirdik, məhsuldar müzakirələr aparıldı. Qısaca deyim qərəzli işin müsbət nəticəsi dərhal hiss olundu birdəfəlik - köç dayandı və tezliklə geriyə - ata-baba yurdlarına qayıdış başladı. Mehdiyev o dövr üçün çox gərəkli olan bu fəaliyyəti də "həzm edə" bilmirdi. Onun əsassız narazılığını hiss edirdim, ancaq fikir vermirdim. Bir dəfə isə... Tbilisiyə növbəti ezamiyyətimlə bağlı sənədin üstünə kiçik bir kağız əlavə edib üzərində yazmışdı: "Qatarla getməsinə etiraz etmirəm". Təyyarə ilə də olmazdı? Hansı Dövlət müşaviri, Prezident Aparatının şöbə müdiri, hökumət üzvləri... Tbilisiyə qatarla gedir? Qatarla getsə, bəs orda necə işləyəcəkdi? (Onu da deyim ki, o vaxtlar Gürcüstanda səfirliyimiz təzəcə açılmışdı, hələ formalaşmamışdı).

Mən onun ağlabatmaz qeydinə fikir vermədən növbəti dəfə və sonralar həmişə ona heç nə demədən Gürcüstana xidməti maşınımla getdim. O, mənə heç nə demədi, desəydi, bilirdi ki, burada yazdığım sözləri eşidəcəkdi.

Yenə Gürmük (Ay Məbədi) ziyarətgahına qayıdıram. Erməni əsilli, millətçi erməni xislətli, gürcü libaslı məmurlar və "ictimaiyyətçilər" artıq dediyim kimi - bu təxribatçı iddialarını ictimai mühitdə, dini aləmdə, rəsmi dairələrdə yaymışdılar. Mənim hədsiz hörmət etdiyim Gürcüstan Patriarxı Zati-Müqəddəsləri II İlya da bu məsələ ilə bağlı mənlə danışdı, mən ona yalnız həqiqəti söylədim: "Gürmük (Ay Məbədi) Qafqaz Albaniyasının - Azərbaycanın məbədi - incisidir. Fikir verirsinizmi, oranı ziyarətə xristianlardan çox azərbaycanlılar - müsəlmanlar gəlirlər.

Məbəd XVIII əsrin sonlarında, XIX əsrin əvvəllərində baxımsız hala düşüb, xarabalığa çevrilib. Rusiya Azərbaycanı işğal edəndən sonra o xarabalıqdan bir az aralı rus pravoslav məbədi tikib və o da həm müsəlmanların, həm də xristianların ziyarət yeri olub" (Məni diqqətlə dinlədi, dediklərimə etiraz etmədi).

Zati-Müqəddəsləri Patriarx çox müdrik və yüksək intellektli din xadimidir. Bir daha vurğulayıram: Ona hədsiz hörmətim var! Ancaq görünür, erməni əsilli gürcü libaslılar onu rahat qoymurdular. Onun imzasıyla möhtərəm Prezidentimizə mənə söylədikləri məzmumda müraciət daxil oldu. Prezident müraciəti baxılmaq üçün mənə ünvanlamışdı. Mən məktuba bu sətirlərdə söylədiyim əsaslarda münasibət bildirmişdim.

Ancaq bundan xeyli öncə bir epizodu da xatırlatmalıyam. Ulu Öndərimiz Eduard Şevardnadzenin ölkəmizə rəsmi səfəri ərəfəsində məni dəvət edib tapşırıq verdi: "Bilirsiniz, Şevardnadze Bakıya gəlir. Orda müxalifət onu rahat buraxmır, sıxışdırır. Guya Azərbaycanda yaşayan gürcülərin hüquqları pozulur, "Gürmük" məbədi və ilaxır. Səfər proqramına Zaqatalanı, Balakəni, Qaxı salmağı israr edirlər. Ona görə də Şevardnadze özünün ora getməməsi üçün səfər öncəsi xarici işlər nazirini ora göndərmək istəyir. İki gün sonra Həsən Həsənovla ora gedəcəklər. Siz onlardan öncə gedin. Özünüz də bilirsiniz - bu gün hansı vacib işlər görəcəksiniz".

Əlbəttə, bilirdim!

Bu mövzuda müfəssəl söhbət etdik. Konkret tapşırıqlarını verdi, bir daha milli siyasət məsələlərini çox dərindən bilməsinə heyrətləndim.

Xarici işlər nazirləri 2 gün sonra gedirlər ora? Onda elə bu gün çıxmaq lazımdır. Amma necə? Qış idi, Bakıya görünməmiş qar yağmışdı. Bəs yollar necə? Respublika Dövlət Yol Polisinin rəisi Ramiz Zeynalova zəng çaldım. Dedi: "Avtomobillə getmək qəti mümkün deyil".

Ümid qaldı qatara. Dəmiryol rəisi Ziya Məmmədov elə öz VİP vaqonunu qatara qoşdu, həmin axşam yola çıxdım, səhər tezdən Qaxda idim. Məni qarşılayan rayon icra hakimiyyətinin başçısı Xəyyam Məmmədovla icra hakimiyyətinə, ya qonaq evinə getmədən işə başladıq. İki gün səhər saat 9-dan axşam 9-a, 10-dək işləyirdik... Nəhayət, iki gün keçdi, nazirlər gəldilər. Bölgədə gürcülər yaşayan bütün kəndlərdə olduq, görüşlər keçirdik. Azərbaycan dövlətinə düzgün milli siyasət yeritdiyi üçün minnətdarlıqdan başqa heç nə eşitmədik. Söhbət yalnız dostluqdan, xalqımızın tolerantlıq xüsusiyyətlərindən, dövlətimizin milli, dini azlıqlara diqqətindən, tolerant münasibətindən gedirdi. Vəziyyəti belə görən nazir İrakli Menaqaraşvili "Gürmük" məbədini heç xatırlamadı da!

İnqiloy kəndlərində görüşlərdə isə çıxışçılar birmənalı, qətiyyətlə bildirdilər: "Qonşu respublikalarıq, xoş gəlirsiniz, dostuq, ancaq missionerlərinizə deyin ki, qardaş, biz gürcü deyilik, inqiloyuq, Qafqaz Albaniyasının yadigarlarındanıq!. Gəlib burda ağlabatmayan, yaramaz təbliğat aparmasınlar. Bizi maddi baxımdan həvəsləndirib xristian etmək istəyirlər. Biz müsəlmanıq və müsəlman da qalacağıq. Biz gürcü deyilik!".

İrakli Menaqaraşvili ilə iki gün işlədik, sonra onu Balakən körpüsündən Tbilisiyə yola saldıq. Nazirlər gələndə də, biz Bakıya qayıdanda da artıq yollar açıq idi, Həsən Həsənovun xidməti maşınındaydıq. Dövlət işində, rəsmi vəzifələrdə çox şey görmüş Həsən müəllim mənə deyirdi: "Sən mənim gənclik illərimdəki kimi işləyirsən...".

Nazir Menaqaraşvili o səfərdə yalnız Azərbaycan həqiqətlərini gördü, eşitdi, maraqla dinlədi, məmnun oldu. Çünki əsl gürcü oğlu gürcü idi!

Nazirlərin Şimal-Qərb bölgəsinə səfərindən iki il öncə qonşu ölkənin Millətlərarası Münasibətlər üzrə Dövlət Komitəsinin sədri Sandro Kafsadze də bu bölgəmizdə olmuşdu. Onu müşayiət edən əməkdaşların içində erməni əsilli, millətçi erməni xislətli, gürcü familyalı, gürcü libaslı birisi də vardı. Hətta o da bölgənin reallıqları ilə tanışlıqdan sonra etiraf etməli oldu: "Bu səfər bizə çox şey verdi, açığı, belə bilmirdik...".

Proseslər beləcə öz axarıyla gedir, həqiqətlər bədxahlarımızı da susdurur, milli siyasətimiz yalnız qonşular arasında deyil, uzaq ölkələrdə də yaxşı nümunə kimi göstərilir, yayılmasına cəhd edilirdi.

Lakin... Bir gün Qax Rayon İcra Hakimiyyətinin başçısı Abbas Göyüşov həyəcanla mənə telefon açdı: "Gürmükdə əsaslı təmir adıyla "yenidənqurma" aparıb, çox şeyi dəyişiblər və memarlığın gürcü üslubuna çeviriblər".

Sanki telefonun dəstəyi əlimdə dondu:

- Bəs, Siz hara baxırdınız? - soruşdum.

- Bizi yaxın qoymurdular. Biz də üz vurmurduq. Çünki təmiri nazirliklərimizdən birinin inşaat təşkilatı həyata keçirirdi. Kimin ağlına gələrdi ki, özümüzünkülər belə xəyanət edə bilərlər?

Eləmişdilər... Şəkillərdən də aydın görünür: rus provaslav kilsəsini necə gürcü kilsəsinə çevirmişdilər. Məndən necə qəsdlə gizlətmişdilər - özləri bilir.

Nazirlik bu xəyanəti Mehdiyev olmadan eləmişdi? Mehdiyevin belə işlərdə "zəngin" təcrübəsi var: məhz o Mərkəzi Komitədə elm və təhsil şöbəsinin müdiri, sonra ideologiya üzrə katibi olanda Yuxarı Qarabağda erməni məktəblərində və mədəniyyət ocaqlarında əsasən daşnakçılıq, anti-Azərbaycançılıq dərsləri keçirilmiş, Xankəndi İnstitutu və Dövlət Dram Teatrı bu təcavüz dərslərinin ideoloji mərkəzinə çevrilmişdi. Mən bu dəhşətli həqiqətləri 1988-ci ilin fevral ayında - Qarabağın ən qorxulu günlərində Mərkəzi Komitənin tapşırığı ilə Vahid Əzizlə, bir neçə nəfər digər məmurla Xankəndidə olanda açıqca hiss etdim. Onu da deyim ki, birinci katib Kamran Bağırov başda olmaqla respublikanın bir sıra rəhbərləri də ordaydılar. Hətta Mərkəzi Komitənin kənd təsərüffatı üzrə katibi, Nazirlər Sovetinin Nəqliyyat şöbəsinin müdiri, Respublika Həmkarlar İttifaqının Sədri (onu heç unutmuram-Vilayət Partiya Komitəsinin Plenumunda sədr Lidiya Rəsulova əsl həqiqətləri aşkarlayan kəskin çıxış etdi-Allah ona rəhmət eləsin) və ideologiya məsələləri ilə məşğul olmayan başqaları. Bəs MK-nın ideologiya üzrə katibi? Digər "ideoloqlar?"

davamı növbəti saylarımızda

# Türkiyə Prezidenti ilk xarici səfərə çıxıb



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dünən ilin ilk xarici səfərləri üçün Səudiyyə Ərəbistanı və Misirə yola düşüb.

Prezident Ərdoğan Ər-Riyadda vəliəhd şahzadə Muhammed bin Salman, Qahirədə isə həmkarı Əbdülfəttah əs-Sisi ilə görüşəcək.

Türkiyə liderinin ikigünlük danışıqlarında regional inkişaf prosesləri və iqtisadi əməkdaşlığın dərinləşdirilməsi əsas prioritetlərdir.

Vaşinqton ilə Tehran arasındakı gərginliyin, eləcə də Suriyadakı vəziyyətin müzakirə olunacağı da gözlənilir.

ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan Qəzza "Sülh Şurası" üçün ayrıca gündəm maddəsi planlaşdırılır.

Qahirədə Misir-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ikinci iclası da keçiriləcək. Prezident Ərdoğanın, həmçinin Türkiyə-Misir Biznes Forumunda iştirakı planlaşdırılır.

# Gürcüstan üçün aktual olan köhnə gündəlik

## Qonşu ölkədə xarici maliyyələşmə və siyasi fəaliyyətlə bağlı qaydalar sərtləşdirilir

**Rəsmi Tbilisi son vaxtlarda ölkənin milli maraqlarının qorunması istiqamətində bir sıra qətiyyətli addımlar atıb. "Gürcü Arzusu" Partiyasının qurduğu hökumət müstəqillik və suverenlik prinsiplərindən çıxış etməklə bu qəbildən olan fəaliyyətlərini davam etdirir. Bu günlərdə hakim partiya parlamentdə "Xarici təsirin şəffaflığı haqqında", "Xarici agentlər haqqında", eləcə də ailə dəyərlərinin qorunmasını özündə ehtiva edən qanunların qəbul edilməsinin ardınca yeni qanunvericilik təşəbbüsü ilə çıxış edib. Bu dəfə söhbət Gürcüstanda xarici maliyyələşmə və siyasi fəaliyyətlə bağlı qaydaların sərtləşdirilməsindən gedir. Artıq parlamentin Hüquqi Məsələlər Komitəsi "Gürcü Arzusu" fraksiyası tərəfindən irəli sürülən qanunvericilik təşəbbüsü çərçivəsində "Qrantlar haqqında" və əlaqəli digər qanunlara təklif olunan dəyişikliklər paketini birinci oxunuşda müzakirə edərək dəstəkləyib.**

### Milli dövlətçilik üçün real təhdidlər

Əslində, parlamentin müzakirəsinə təqdim olunan məsələni Gürcüstan üçün bu gün də çox aktual olan köhnə gündəlik kimi səciyyələndirmək daha doğru olardı. Çünki artıq neçə illərdir ki qonşu ölkəni təhdid edən təhlükənin zəmini, ölkəni birbaşa təhdid idi. Baş verənlər dövlətçilik üçün birbaşa təhdid idi. Aksiyalar açıq-aşkar xaricdən idarə olunurdu. İş o yerə çatmışdı ki, hətta xarici agentlər, ayrı-ayrı ölkələri və beynəlxalq təşkilatları təmsil edən



dövlət xaricdən maliyyələşən bir sıra icmaların, o cümlədən siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının milli maraqlarla ziddiyyət yaradan fəaliyyətlərinin kədərli nəticələri ilə üzləşir. Etiraf olunur ki, xaricdəki bəzi dairələr çirkin maliyyələr ötürməklə, əslində, Gürcüstan cəmiyyətinin bütün təbəqələrinə dərindən nüfuz edib. Vəziyyət o dərəcədə ciddi hal alıb ki, son parlament, prezident və bələdiyyə seçkiləri ərəfəsində ölkədə davamlı hal alan qarşıdurmalar yaşandı. Küçələrdən, parlamentdən başlayan ziddiyyətlər hakimiyyətin qolları arasında parçalanmalar baş verməsinədək genişdiplomatlar, səfirlər belə nümayişçilər arasında görünməkdən çəkinmirdilər. Aksiyaya qoşulanlar, xüsusilə də gənclər pul və digər şirnikləndirici vədlərlə ələ alınır və beləliklə də, pozuculuq əməllərinin miqyasının genişləndirilməsinə cəhdlər göstərilirdi. Məqsəd də bir idi: Ölkədə seçkilərin nəticələrini - "Gürcü Arzusu"nun qələbəsini tanımamaq və Tbilisidə milli iradədən kənar, idarə olunan hakimiyyət formalaşdırmaq.

Vəziyyətin ciddiliyini bütün miqyası ilə göz önündə canlandırmaqdan ötrü qonşu ölkənin vətəndaş cəmiyyəti sektoruna nəzər salaq. Mənzərə həqiqətən heyrət doğurur. Son illərin məlumatına əsasən, burada aktiv fəaliyyət göstərən 25 min qeyri-hökumət təşkilatı var. Gürcüstanın 3,7 milyon əhalisi olduğunu nəzərə alsaq, bu, dünyada adambaşına düşən ən yüksək göstəricilərdən biridir, yəni hər 148 Gürcüstan vətəndaşına, demək olar ki, bir QHT düşür. Narahatlıq yaradan ən mühüm məqam ondan ibarətdir ki, ölkədə qeydiyyata alınan QHT-lərin təxminən 90 faizi xaricdən maliyyələşir.

Donor təşkilatlarının siyahısında yenə də dünyanın ayrı-ayrı ölkələrində rəngli inqilablar və milli hökumətlərə qarşı digər pozuculuq əməlləri törətmiş təşkilatlar - Avropa İttifaqı, ABŞ-ın keçmiş administrasiyası, Soros Fondu kimi müxtəlif qurumlar yer alırlar. İndiyədək 100-dən çox ölkədə şəbəkə qurmağa nail olan, D.Trampın bir qədər bundan əvvəl ifşa etdiyi və artıq ləğv olunan ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) də burada "aktivliyini" xüsusi qeyd edə bilərik. Verilən məlumata görə, Gürcüstanın qeyri-hökumət təşkilatları 2024-cü ildə ölkədə parlament seçkiləri ərəfəsində ABŞ Beynəlxalq İnkişaf Agentliyindən 41 milyon dollardan çox vəsait alıblar.

Adları çəkilən donorlar digər ölkələr kimi, Gürcüstanı da xüsusi məqsədlər naminə, necə deyərlər, özününküləşdirməyə çalışıblar və müəyyən mənada buna nail olublar. Qısa müstəqillik tarixində qonşu ölkə bir neçə rəngli inqilab dalğasından keçib və onların nəticələri milli dövlətçilik üçün kifayət qədər ağır olub. Belə ki, ölkə ərazi itkilərinə məruz qalıb.

### "Qrant" anlayışı daha konkret məzmunda təqdim olunur

Gürcüstan hakimiyyəti anlayır ki, gec də olsa xarici təsirlər məhdudlaşdırılmasa, milli dövlətçilik tamamilə itirilə bilər. Yaranmmış zərurətdən çıxış edən hakim komanda dövlət quruculuğunda buraxılmış səhvləri nəzərə almaqla ölkənin real müstəqilliyinə və tam suverenliyinə nail olmaq istəyir və bu istiqamətdə qətiyyətli addımlar atır. "Gürcü Arzusu"nun parlamentdə irəli sürdüyü növbəti qanunvericilik təşəbbüsü də bu məqsədə xidmət edir. Parlamentin yaydığı məlumata görə, dəyişikliklər "qrant" anlayışını genişləndirir və dəqiqləşdirir. Yeni tərifə əsasən, qrant - Gürcüstan hökumətinə, dövlət qurumlarına və ya cəmiyyətin hər hansı bir hissəsinə təsir göstərmək niyyəti və ya inancı ilə həyata keçirilən və ya həyata keçiriləcək fəaliyyətlər üçün istifadə olunan vəsait hesab ediləcək. Bu, həmçinin Gürcüstanın daxili və xarici siyasətinin formalaşdırılması, həyata keçirilməsi və ya dəyişdirilməsinə yönəlmiş, eləcə də xarici dövlətlərin və ya xarici siyasi partiyaların siyasi və ictimai maraqları ilə bağlı fəaliyyətləri əhatə edir. Qrantlar nağd və ya natura formasında ola bilər.

Xaricdə qeydiyyatdan keçmiş, lakin əsas fəaliyyəti Gürcüstanla bağlı olan təşkilatlar qrant almazdan əvvəl hökumətdən müvafiq razılıq əldə etməlidirlər.

Dəyişikliklərə əsasən, texnologiya, ixtisaslaşmış bilik, bacarıq, təcrübə mübadiləsi, xidmətlər və digər yardım formaları müqabilində köçürülən vəsaitlər də qrant hesab ediləcək.

### Cinayət Məcəlləsinə də müvafiq dəyişikliklər ediləcək

Hakim fraksiyanın təqdim etdiyi qanun layihəsinə əsasən, Cinayət Məcəlləsinə də dəyişiklik edilərək xaricdə lobbiçilik və siyasi fəaliyyət üçün ödənilən vəsaitlərin cinayət məsuliyyəti yaratması barədə norma əlavə olunur. Gürcüstanla bağlı məsələlərdə beynəlxalq səviyyədə ölkə adından çıxış etmək səlahiyyəti yalnız Gürcüstan hökumətinə məxsusdur.

Qanunvericilik paketinə əsasən, siyasi məqsədi olan və bunu açıq şəkildə bəyan edən fiziki və ya hüquqi şəxslər siyasi partiyalarla eyni tələblərə tabe olacaqlar. Bu isə onların xaricdən maliyyə almasını əngəlləyir, hüquqi şəxslərdən ianə qəbulunu məhdudlaşdırır və gəlirlərin qanunla müəyyən olunmuş müddətdə bəyan olunmasını tələb edir.

Bundan əlavə, "Vətəndaşların siyasi birlikləri haqqında" qanuna planlaşdırılan dəyişikliklərə görə, illik gəlirinin 20 faizindən çoxunu xarici dövlətdən alan təşkilatda çalışan şəxslərin 8 il müddətinə siyasi partiya üzvü olması qadağan ediləcək.

Qanunvericilik paketində İnzibati Xətalar Məcəlləsinə də dəyişikliklər nəzərdə tutulur. Yeni qaydalara əsasən, sahibkarlıq subyektinin əsas fəaliyyəti ilə bağlı olmayan ictimai-siyasi fəaliyyətlə məşğul olması inzibati xəta sayılacaq. Bu halda 20 min lari, təkrar pozuntu zamanı isə 40 min lari məbləğində cərimə tətbiq olunacaq.

*Mübariz FEYİZLİ*

# Lütfi Zadə: Zamanı qabaqlayan zəka!

*Yeganə BAYRAMOVA*



Elm tarixi elə insanlar tanıyır ki, onların bir ideyası bütöv bir dövrün düşüncə tərzini dəyişir. Lütfəli Rəhim oğlu Ələsgərzadə də (Lütfi Zadə) məhz belə dahilərdəndir. O, təkcə görkəmli alim deyil, həm də elmin sərhədlərini genişləndirən, qeyri-müəyyənliyi riyaziyyatın dilinə çevirən bir düşüncə adamı idi. Fevralın 4-ü dünya şöhrətli alim, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Lütfi Zadənin doğum günüdür. Kaliforniya Universitetinin məşhur professorunun bu gün 105 yaşı tamam olur.

1921-ci il fevralın 4-də Bakıda anadan olan Lütfi Zadə ibtidai təhsilini 16 nömrəli orta məktəbdə başa vurub. 1932-ci ildə Ələsgərzadələr ailəsi ata-baba yurduna - Cənubi Azərbaycana köçmək məcburiyyətində qalıb. Burada orta təhsilini başa vuran Lütfi Zadə Tehran Universitetinin elektrik mühəndisliyi fakültəsinə qəbul olunub. Bu təhsil ocağını müvəffəqiyyətlə bitirdikdən sonra o, 23 yaşında ABŞ-a gedib və təhsilini Massaçusets Texnologiya İnstitutunda davam etdirib. Onun dünya elminə məlum olan altı mühüm nəzəriyyəsinin bünövrəsi də elə burada qoyulub.

**Elm naminə yaşanan ömür...**

Lütfi Zadə 1944-cü ildən 1959-cu ilədək Massaçusets Texnologiya İnstitutunda və Kolumbiya Universitetində magistr, doktorluq elmi dərəcələrini alıb. O, 1959-cu ildən Berkli Universitetində çalışıb, 1963-cü ildən isə elektrik mühəndisliyi və kompüter elmləri kafedrasına rəhbərlik edib. Lütfi Zadə həmin ali təhsil ocağında ömürlük professor və Soft Computing İnstitutunun direktoru kimi fəaliyyət göstərib.

Azərbaycanlı alimə dünyada şöhrət qazandıran və istehsalatda geniş tətbiq edilən, eyni zamanda, dünya elmində inqilab sayılan qeyri-səlis məntiq (Fuzzy Logic) nəzəriyyəsi olub. Bu nəzəriyyə riyaziyyatın əsası olan ikili çoxluq anlayışına yeni ifadə verib: qeyri-səlis çoxluq. Elmdə qeyri-səlis ölçünün daxil edilməsi təbiətdə və cəmiyyətdə cərəyan edən proseslərin qeyri-müəyyənliyini daha adekvat nəzərə almağa imkan yaradıb. Hazırda Yaponiyanın "Mitsubishi", "Toshiba", "Sony", "Canon", "Sanyo", "Nissan", "Honda" və digər nüfuzlu şirkətləri qeyri-səlis məntiq texnologiyasından foto və videokameralar, paltaryuyan maşınlar və vakuum kimyəvi təmizləyicilərinin istehsalında, avtomobillərin, qatarların, sənaye proseslərinin idarə olunmasında geniş istifadə edirlər. Alim, həmçinin "Təəssüratlar nəzəriyyəsi", "Sistemlər nəzəriyyəsi", "Sözlə işləyən kompüter nəzəriyyəsi", "Optimal süzgəclər nəzəriyyəsi" kimi dünya elminin inkişafında, onun yeni əsaslar üzərində qurulmasında mühüm rol oynayan elmi kəşflərin müəllifidir. Onun haqqında "Müasir elmin korifeyi", "Dünya dahilərsiz yaşaya bilməz" kitablar yazılıb, "Uzaq və yaxın Lütfi Zadə" sənədli filmi çəkilib, Lütfi Zadə İrsi və Süni İntellekt Assosiasiyası, Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyası yaradılıb.

Alimin məşhur vəziyyətlər fəzası, dinamik sistemlərin idarəolunma və müşahidəolunma nəzəriyyələri müasir idarəetmə elminin əsasını təşkil edir. ABŞ-ın Milli Kosmik Tədqiqatlar Mərkəzi (NASA) bu nəzəriyyələr əsasında idarəetmə sistemlərini tədqiq edir, layihələndirir və tətbiqini həyata keçirir.

Lütfi Zadənin zəngin elmi fəaliyyəti Azərbaycan dövləti tərəfindən də hər zaman yüksək qiymətləndirilib. 2011-ci ilin fevralında Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən dünya şöhrətli alim texnologiyaların inkişafına verdiyi töhfələrə və mədəniyyətlərarası dialoqun qurulmasında göstərdiyi xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif edilib.

O, sonuncu dəfə Bakıya 2008-ci ilin noyabrında "BakuTel" beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransında iştirak etmək üçün gəlmişdi. Lütfi Zadə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində təşkil olunan tədbirdə iştirak edib, ona elmdə göstərdiyi xidmətlərə görə AMEA-nın fəxri diplomu təqdim olunub.

AMEA Rəyasət Heyətinin 2016-cı il aprelin 20-də keçirilmiş iclasında böyük alim "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı"na layiq görülüb. O, 1989-cu ildə qeyri-səlis məntiq nəzəriyyəsinin sənayedəki uğurlarına görə Yaponiyanın elm adamlarına verilən ən yüksək "Honda" mükafatı ilə təltif olunub.

Bir çox xarici ölkə akademiyalarının üzvü olan L.Zadə çoxlu sayda mötəbər cəmiyyətlərin və fondların mükafatlarına layiq görülüb, medallarla təltif edilib. Onlarla xarici dövlət və ictimai təşkilatların fəxri doktoru olub. Dünya şöhrətli alim, həmçinin ABŞ Milli Mühəndislik Akademiyasının üzvü, fəxri akademiki seçilib. Lütfi Zadə həm də AMEA İnformasiya Texnologiyaları İnstitutunun "İnformasiya Cəmiyyəti Problemləri" və "İnformasiya Texnologiyaları Problemləri" jurnallarının fəxri baş redaktoru olub.

Alim 2017-ci ildə vəfat edib, nəşi öz vəsiyyətinə uyğun olaraq, Azərbaycana gətirilib və birinci Fəxri Xiyabanda dəfn edilib.

# Avropanın neftə tələbatı artır...

## Yeni neft sazişləri imzalayan Azərbaycan qlobal enerji təminatçısı kimi mövqeyini möhkəmləndirmək niyyətindədir

Avropanın bir sıra dövləti "yaşıl enerji" istehsalı kursunu dəyişərək neft və qaz istehsalını artırmaq qərarına gəlib. Yunanıstan, İtaliya və Kipr enerji təhlükəsizliyini təmin etmək məqsədilə neft və qaz kəşfiyyatını həyata keçirməyə başlayıb. Yunanıstanın "Energean Group" şirkətinin rəhbəri Matiosa Riqasa bildirib ki, 7 il əvvəl "yaşıl enerji" istehsalına daha çox sərmayə yatırılırdısa, hazırda ənənəvi enerjiyə kapital axınlarının artımı müşayiət edildi. Bunun əsas səbəblərindən biri kimi istehsal olunan alternativ enerjinin tələbatı ödəyə bilməməsidir. Bu baxımdan iri neft şirkətləri, xüsusilə də "ExxonMobil" kimi nəhəng korporasiyalar yeni kəşfiyyat işlərinə start verib. Amerikan şirkəti Yunanıstanın qərb bölgələrində kəşfiyyat işlərini genişləndirib. M. Riqasa nəzərə çatdırıb ki, bu gün Avropa qitəsi enerji təminatı baxımından əziyyət çəkir. Qiymətlər hər gün yüksəlir ki, bu da ölkələrin iqtisadi inkişafına mənfi təsir göstərir.

### İkinci neft bumuna keçid

Mövcud tendensiyalar Azərbaycanda da neft hasilatının artırılması üçün qlobal sərmayədarlarla imkanların səfərbər edilməsini aktuallaşdırır, yeni neft-qaz sazişlərinin imzalanmasını zəruri edir. Bu məsələyə Prezident İlham Əliyev də diqqət çəkib, ötən ay İsveçrədə keçirilən Davos İqtisadi Forumunda təşkil edilən sessiyada neft hasilatı ilə bağlı fikirlər səsləndirib. Ölkəmizdə neft hasilatını sabitləşdirmək, hətta artırmaqla bağlı planlarımızın olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib ki, beynəlxalq enerji şirkətləri tərəfindən həyata keçirilən kəşfiyyat layihələri yaxşı nəticələr verdiyi halda Azərbaycanda ikinci neft bumunu yaşaya biləcəyimizə dair çox haqlı ümidlərimiz var.

Yeni neft bumu üçün əsaslı hüquqi-iqtisadi baza mövcuddur, 2017-ci il sentyabrın 14-də Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri"- "Çıraq"- "Günəşli" (AÇG) yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni Sazişin imzalanması ilə "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilə qədər uzadılıb. Eləcə də son illərdə SOCAR bir neçə xarici korporasiya ilə sazişlər imzalayıb.

Davos Forumunda SOCAR-ın rəhbərliyinin iştirakı ilə dünyanın tanınmış enerji və marketinq icmasının nümayəndələri ilə keçirilən görüşlərdə də Azərbaycanda müasir enerji layihələri barədə müzakirələr aparılıb. Görüşlərdə neft-qaz hasilatında "yaşıl texnologiya"ların tətbiqi, innovasiya və səmərəlilik, idarəçilik və inkişaf kimi mövzularda əməkdaşlıq imkanlarına toxunulub. Tədbir çərçivəsində SOCAR-la İsveçrənin "SICPA SA" şirkəti arasında Xidmətlər Sazişi imzalanıb. Sənədə əsasən, tərəflər müasir monitorinq texnologiyaları vasitəsilə birgə fəaliyyət çərçivəsinin yaranmasını təmin edəcəklər. Bu xüsusda, istehsal, daşınma və satış zəncirinin bütün mərhələlərini əhatə edən vahid və rəqəmsal nəzarət mexanizminin formalaşdırılması nəzərdə tutulur. "SICPA SA" şirkəti ilə əməkdaşlıq yeni həllər, enerji təchizatı zənciri üzrə təhlükəsizliyin təmin edilməsinə və şəffaflığın artırılmasına töhfə verəcək. Bu saziş də məhz yeni neft bumu üçün nəzərdə tutulub.

### ABŞ-la birgə Xəzərdə yeni layihələr

Xəzər dənizində modernləşdirmədə əsas rol oyanayan bp şirkəti innovasiyayönümlü istehsala keçid sayəsində "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunda əlavə olaraq 2 milyard bareldən çox neft hasil etməyi planlaşdırır. Şirkətin AÇG sahəsinin işlənməsi üzrə meneceri Əfqan Hüseynovun sözlərinə görə, AÇG-nin gələcək hasilat potensialını artırmaq üçün kompleks yenilənmə və yeni texnologiyaların tətbiqi davam etdirilir. Yatağın statik və dinamik modelləşdirilməsi daha da təkmilləşdirilib. 700-dən çox quyudan toplanmış məlumatlar və 16 min metrdən artıq DTS nəticələri mürəkkəb layların dəqiq xəritələndirilməsinə imkan verib. Bunun nəticəsində təqribən 300 min barel əlavə hasilat potensialı yaranıb və potensial daha da artmaqdadır.

Azərbaycanın Xəzərdə ən modern emal texnologiyalarını tətbiq etməsində yaxın tərəfdaşlarından biri ABŞ-dır. SOCAR və ABŞ-ın "SLB" şirkəti arasında əldə edilmiş razılığa əsasən, Xəzərin Azərbaycan sektorundakı "Bahar" və "Qum-Dəniz" yataqlarının yenidən işlənməsinə start verilib. Bu tərəfdaşlıq perspektivli hasilat zonalarının müəyyən edilməsini, hərtərəfli rezervuar modelləşdirməsinin hazırlanmasını və bu yataqlarda erkən hasilat sxemini (EPS) dəstəkləmək üçün quyu və qazma qurğuları proqramlarının layihələndirilməsini nəzərdə tutur.

25 il müddətinə nəzərdə tutulan müqavilənin investisiya portfeli 1 milyard dollar həcmində qiymətləndirilir. Müqavilə blokunda qaz ehtiyatları 25 milyard kubmetr təşkil edən yatağın işlənməsi SOCAR-ın neft hasilatının artmasına və uzunmüddətli strategiyasına mühüm töhfə verəcək.

Yeri gəlmişkən, Azərbaycan və ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası üzrə Memorandumun bir istiqaməti də enerji sahəsində əməkdaşlığı nəzərdə tutur. Eləcə də SOCAR və "ExxonMobil" korporasiyası arasında imzalanmış "Əməkdaşlıq haqqında Memorandum"ABŞ-ın məşhur enerji korporasiyasının Azərbaycanda yeni fəaliyyət planlarına dair yol xəritəsidir. "Exxon" şirkəti Xəzərdə yeni karbohidrogen tədarüklərinin başlanması üçün "EXIM Bank"ı da prosesə qoşacaq ki, bu da nəql infrastrukturunun şaxələnməsində potensial maliyyəni təmin edəcək.



Xarici korporasiyalarla yeni əməkdaşlıq sazişlərinin məqsədi neft hasilatının dayanıqlılığını təmin etmək, enerji sənayesinə yeni yanaşmalar gətirməkdir. Çünki asan neft dövrü başa çatıb və Xəzərdə yataqların məhsuldarlığını saxlamaq

### Enerji sənayesində yeni yanaşmalar tətbiq olunur

üçün müasir texnologiyaya ehtiyac var. Xəzər hövzəsi texniki cəhətdən ən maraqlı və strateji baxımdan vacib bölgələrdən biri olaraq qalır və bu amil dənizin zəngin neft zonası kimi əhəmiyyətini təsdiqləyir. Ona görə də, müasir texnoloji sıçrayışlar fonunda neft sənayesinin yeni innovasiyalara ehtiyacı artıb və hazırda yeni ideya və yanaşmalar da bu səmtə istiqamətlənib. Bu istiqamətdə Azərbaycanın əsas enerji partnyoru olan bp şirkəti Xəzərdəki əməliyyatlarında ilk dəfə olaraq quyuya dikborusuz yüngül müdaxilə texnologiyası tətbiq edəcək. Bu innovativ metodlar hasilat səviyyəsinin gücləndirilməsi imkanlarının səmərəli tədqiqinə və erkən aşkarlanmasına imkan verəcək.

Beləliklə, Xəzərin enerji resurslarının artması ənənəvi enerjiyə tələbatları artan Avropa dövlətlərinin enerji təhlükəsizliyini daha da möhkəmlənməsi üçün də mühüm əhəmiyyət daşımaqla, Azərbaycanın sadiq təchizatçı kimi uzun illər regional üstünlüyünü təmin edəcək.

# Əbu-Dabidə növbəti raund...

## Ukrayna-Rusiya müharibəsi: davam, yoxsa tamam

Fevralın 1-də Əbu-Dabidə keçirilməsi planlaşdırılan Ukrayna münaqişəsinin sülh yolu ilə həlli üzrə danışıqların ikinci raundu 4-5 fevral tarixlərinə təxirə salınıb. Bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov məlumat verib. O bildirib ki, təhlükəsizlik qrupunun işinin ikinci raundu ötən bazar günü keçirilməli idi, lakin üç tərəfin cədvəllərinin əlavə koordinasiyası tələb olunurdu. "Danışıqların ikinci raundu çərşənbə - cümə axşamı Əbu-Dabidə keçiriləcək, biz bunu təsdiqləyə bilərik", - deyə o bildirib.



### Ötən görüşdən sonra...

Qeyd edək ki, üçtərəfli danışıqların 1 fevralda Əbu-Dabidə keçiriləcəyi bildirilmişdi. Rusiya, Ukrayna və ABŞ nümayəndələri arasında BƏƏ-nin iştirakı ilə əvvəlki danışıqlar 23 və 24 yanvar tarixlərində Əbu-Dabidə qapalı qapılar arxasında keçirilib. Hər üç tərəf görüşü konstruktiv qiymətləndirib. Görüşdə Rusiya və Ukrayna nümayəndə heyətləri ilk dəfə olaraq ABŞ-ın 2025-ci ilin oktyabr ayından bəri onlarla əlaqələndirdiyi sülh planını birbaşa müzakirə ediblər.

Vurğulandığı kimi, görüş qapalı keçirilib. Ukraynanı Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerovun rəhbərlik etdiyi nümayəndə heyəti, ABŞ-ı isə Prezidentin xüsusi elçisi Stiv Vitkoff, Cared Kuşner və Ordu katibi, Ukrayna üzrə xüsusi elçi Den Driskol təmsil edib. Rusiya nümayəndə heyətinə Baş Qərargahın (BQQ) Baş İdarəsinin rəisi İqor Kostyukov rəhbərlik edib - qrupa yalnız Müdafiə Nazirliyinin nümayəndələri daxil olub. Ukrayna Prezidentinin Ofisinin görüşlə bağlı yaydığı məlumatda bildirilirdi ki, görüşlər müxtəlif formatlarda keçirilib. "Reuters"-in məlumatına görə, BƏƏ hökumət nümayəndəsi danışıqlar zamanı Rusiya və Ukrayna nümayəndə heyətlərinin üzvlərinin birbaşa qarşılıqlı əlaqədə olduğunu bildirib. Danışıqların ilk günündən sonra Ukrayna nümayəndə heyətinin rəhbəri Rüstəm Umerov görüşün Rusiya müharibəsinə son qoymaq üçün parametrlərə, ləyaqətli və davamlı sülhə doğru irəliləmək məqsədi ilə danışıqlar prosesinin gələcək məntiqinə həsr olunduğunu deyib. Trampın xüsusi nümayəndəsi Stiv Vitkoff bildirib ki, danışıqlar çox konstruktiv keçib və dialoqun gələn həftə Əbu-Dabidə davam etdiriləsi barədə razılıq əldə edilib. Prezident Tramp və onun bütün komandası bu müharibəyə son qoymaq və sülh yaratmaq əzmindədirlər. "Axios" ABŞ rəsmilərindən birinə istinadən isə "Biz Putin və Zelenski arasında görüşə çox yaxınıq" yazıb. Bu rəsminin sözlərinə görə, əgər Əbu-Dabidəki növbəti üçtərəfli görüşdə daha çox irəliləyiş əldə olunarsa, bunun ardınca Moskva və ya Kiyevdə görüş keçirilə bilər.

### Ukrayna təhlükəsizlik arzusundadır

Ukrayna nümayəndə heyətinin rəhbəri Rüstəm Umerov nümayəndə heyətinin fevralın 3-də Əbu-Dabiyə yola düşdüyünü və orada ABŞ ilə ikitərəfli məsləhətləşmələrin baş tutacağını bildirib. Onun sözlərinə görə, nümayəndə heyətinin razılaşdırılmış çərçivəsi və Ukrayna Prezidentinin aydın göstərişləri var. Rəsmi Kiyevi təmsil edən qrupun əsas məqsədi Ukraynanın təhlükəsiz və iqtisadi bərpasının təməlini qoyacaq ədalətli və davamlı sülhə nail olmaqdır.

Xatırladaq ki, Prezident Zelenski Əbu - Dabi səfəri öncəsi Ukrayna nümayəndə heyəti ilə də görüşüb. O, müzakirə üçün çərçivə haqqında fikirlərini çatdırıb.

### Təxirə salınma səbəbləri...

İkinci görüşün təxirə salınması səbəbi isə məlum deyil. "The New York Times" qəzeti ikinci raundun təxirə salınması qərarının Floridada Rusiya və Amerika nümayəndələri arasında gözlənilməz görüşdə verildiyini bildirib. Qeyd edək ki, yanvarın 31-də Rusiya Prezidentinin xüsusi nümayəndəsi və RDIF-in baş direktoru Kirill Dmitriyev Mayamidə ABŞ Prezidentinin xüsusi elçisi Stiv Vitkoff, eləcə də Skott Bessent, Coş Qruenbaum və Cared Kuşner ilə danışıqlar aparıb. Danışıqlardan sonra Stiv Vitkoff "X" sosial media platformasında görüşdən ruhlandığını və "Rusiya Ukraynada sülhün bərqərar olması üçün çalışır" deyə yazıb.

"InfoBRICS" xəbər yayıb ki, Rusiya Federasiyası, ABŞ və Ukrayna nümayəndələri arasında Əbu-Dabidə keçiriləcək danışıqlar yalnız Ukrayna Prezidenti Volodimir Zelenskinin ərazi güzəştlərinə razılıq verməsi halında uğurlu olacaq. Nəşr sülh danışıqlarının Zelenskinin ərazi güzəştlərinə razılıq verməyi təqdirdə əhəmiyyətli irəliləyiş əldə etmə ehtimalını aşağı hesab edir. Bildirilir ki, Ukrayna imtina edərsə, Rusiya tərəfi münaqişəyə hərbi yolla davam edəcək.

### Şərtlər dəyişmir?

Rusiya isə nizamlanma şərtlərində güzəştə getmək niyyətində deyil. Bu barədə Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev "Reuters"ə müsahibədə bildirib ki, Prezident Putin tərəfindən formalaşdırılmış Ukraynada nizamlanma şərtləri dəyişməz olaraq qalır. "Şərtlərə gəldikdə isə onlar açıqdır. Onlar ilk dəfə Rusiya Federasiyası Prezidenti tərəfindən Xarici İşlər Nazirliyində keçirilən görüşdə çıxış edərkən formalaşdırılmışdır", - deyə Medvedev bildirib.

O əlavə edib ki, bu şərtlər Ankoricdə keçirilən görüşdə amerikalı həmkarlarına da çatdırılıb. "Və şərtlər dəyişməz olaraq qalır", - deyə Təhlükəsizlik Şurasının sədr müavini vurğulayıb.

Xatırladaq ki, ötən ilin dekabrında Putin Rusiyanın 2024-cü ilin yayında təqdim etdiyi Rusiya təkliflərinə əsasən Ukrayna münaqişəsinə sülh yolu ilə son qoymağa hazır olduğunu bildirmişdi. İrəli sürülən şərtlərə gəldikdə isə Ukrayna qoşunlarının Donetsk, Luqansk, Xerson və Zaporojye vilayətlərinin inzibati sərhədləri daxilindəki bütün ərazilərindən çıxarılması, Ukraynanın NATO-ya qoşulmaqdan imtina etməsi və Rusiya əleyhinə sanksiyaların ləğvi bu siyahıya daxildir.

**P.İSMAYILOV**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# İlin ən yaxşıları, eldə ən çox sevilənləri




Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tanınmış məşqçilərin, mütəxəssis və idman ictimaiyyətinin rəyini nəzərə almaqla 2025-ci ilin yekunlarını müzakirə etmiş, ən yaxşıları müəyyən edərək qalibləri mükafatlandırmışdır. Nəticələr mətbuatda geniş işıqlandırılmışdır.

Səhər-səhər iş başında qəzetlərin yeni nömrələrini nəzərdən keçirərkən ağlıma gələn ilk fikir - bəlkə Elvin də bu dəstəyə düşübdür-deyə vaxt itirmədən nazirliyin məlumatını izləyəsi oldum. “İlin ən yaxşıları” nominasiyasında qruplaşdırılmış məlumatın son hissəsində rastlaşdığım informasiya qəlbimi sevinc hissi ilə doldurdu, məni qeyri-adi bir aləmə apardı. “Qeyri-Olimpiya idman növləri üzrə ilin ən yaxşı idmançıları bölümündə gənc boksinq Elvin Məmmədovun da adı var idi. Sevincimin həddi-hüdudu yox idi, xəyalım göylərdə pərvaz edirdi. Yan-yörəmə baxıb bu xoş xəbərdən söz açmağa, Elvini təqdim etməyə fürsət axtarası oldum...

Bəs Elvin Məmmədov kimdir? Təqdim edilən siyahıda bəlkə də ən gənc idmançı, lakin “böyüklər” səviyyəsində parlaq yol keçən, sayılıb-seçilən titullara sahib çıxan oğlanlardan biri, bəlkə də birincisidir. Bu mənada onun namizədliyinin “ən yaxşılar” siyahısına daxil edilməsi təsadüfi deyil, qanunidir, düzgündür, həm də yerinədüşəndir və müəllif kimi biz də arada qohumluq əlaqələrimiz olsa da, onun yüksək keyfiyyətlərini, şəriksiz uğurlarını idman ictimaiyyətinə çatdırmağımızda heç bir hüquqi, mənəvi qüsura yol vermirik. Keçək əsl mətləbə.

Elvin Məmmədov 12 avqust 2006-cı ildə Bakıda doğulub. 2012-ci ildə, 6 yaşında Yasamal rayonundakı 13 saylı məktəbə daxil olub, 2022-ci ildə təhsilini başa vurmuşdur. Hazırda Azərbaycan İdman Akademiyasının 3-cü kurs tələbəsidir. Əsas məşğuliyyəti dərslərə davam etmək və məşqlərə hər gün çıxmaqdır. Boş vaxtlarında istirahət edir, bədii kitabları mütaliə edir, biliyini artırır.

20 yaşın “astanasında” Elvin Elşənoğlu bir sıra gözəgələn uğurlar qazanmışdır. O, ikiqat Dünya çempionudur, ikiqat Avropa çempionatında qızıl medalın sahibidir. Elvin çoxsaylı Dünya çempionu, polkovnik-leytenant Eduard Məmmədovun rəhbərliyi altında yarışlara hazırlaşır, onun tapşırıq və tövsiyələrini qüsursuz yerinə yetirir. O, məşqçisinin sevimli yetirməsi kimi hörmət qazanmışdır.

Gənc kikbokşçunun bu uğurlu titulları üç ay, ya bir illik fəaliyyətinin nəticəsi deyil. Buna çatanadək Elvin məşqlərinə böyük vaxt sərf etmiş, nə qədər vuruşmuş, nə qədər həyəcanlı anlar keçirmişdir! Nəticə ili-ildən yaxşılaşmış, titullu adlara yol açmışdır.

Elvin Məmmədov on ildən artıqdır ki, sevdiyi “idman yolunun” yolçusudur. Kiçik yaşlarında respublika birinciliyi uğrunda keçirilən yarışlarda 5 dəfə Azərbaycan çempionu adını almış, gələcəyin perspektivli, ümidverici atleti olacağına təminat yaratmışdır. Onun sonrakı uğurlarının mərhələlərini qısa və yığcam şəkildə azarkeşlərinə bəyan edirik:

İlk beynəlxalq rinqdə Elvin 2019-cu ildə, Macarıstanda keçirilən yeniyetmələrarası Dünya kuboku yarışlarda qatılmış və nəticədə bürünc medala layiq sürülmüşdür. Məşqçisi onu tərifləmiş, bunun yüksək göstərici olduğunu demiş, yetirməsini onu daha böyük qətiyyətlə işə girişməyə ruhlandırmışdır.

Yeniyetmə və gənclərarası Avropa çempionatı 2021-ci ildə Monteneqroda keçirildi və Elvin bu növdə uğurlarını bir qədər də artırıb gümüş medal qazandı.

2022-ci ilin oktyabrında İtaliyada keçirilən yeniyetmə və gənclərarası Dünya çempionatının iştrakçısı Elvin Elşənoğlu




Dünya çempionu adı qazanır. Bu görüşdən cəmi bir ay sonra noyabr ayında Türkiyədə keçirilən qarşılaşmada isə Elvin böyüklərarası nominasiyada qalib tanınır, Avropa çempionu olur, 16 yaşlı igid atlet Azərbaycanda böyüklərarası şərəfli Avropa çempionu adına layiq görülür.

Portuqaliyada 2023-cü ildə keçirilən böyüklərarası Dünya çempionatı yarışlarında qalib gələn 17 yaşlı Elvin bu sınaqdan da layiqincə çıxır, ikinci dəfə Dünya çempionu olur.

2024-cü ildə Yunanıstanda keçirilən böyüklərarası Avropa çempionatında Elvin yenidən Avropa çempionu şərəfli adını qazanır.

Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu Dabidə 2025-ci ildə keçirilən Dünya çempionatı yarışları gənc atletin həyatında bir sıra əlamətləri ilə yadda qalan olmuş, çox böyük xatirələr doğurmuşdur. Elvin bu yarışlara 57 kiloqram çəkidə çıxır, bütün rəqiblər üzərində qələbə çalır və ikinci dəfə Dünya çempionu şərəfli adını alır.

Müsahibim bu görüşün mərhələlərini xüsusi maraqla danışdı : - Dayı, - dedi, - beynəlxalq yarışlara qatıldığım altı il ərzində rastlaşmadığım bu mənzərə qeyri-adi hal kimi yaddaqalan oldu. İlk görüşümə Qırğızıstan atleti ilə çıxdım. Onu elə də böyük zəhmətə qatlaşmadan məğlub etdim, ikinci atlet İsrail nümayəndəsi idi. Ona da qalib gəldim. Üçüncü rəqibim Serbiya nümayəndəsi idi. Hakim bizi rinqə dəvət edəndə mən dərhal yerimi tutdum, amma nədənsə serbiyalı meydana çıxmadı. Bu, rəqibin yarışdan imtina etmək işarəsi idi. Belə halda referi rinqin ortasında mənim əlimdən tutdu, rəqibin gəlmədiyini görüb mənim əlimi yuxarı qaldırdı, qələbəni mənə verdiyini bildirdi. Sən demə, serbiyalı mənim İsrail nümayəndəsinə necə qalib gədiyimi görüb, ehtiyatlanmış və meydanda ağır məğlubiyyət görəcəyini hiss edib, vuruşmadan qələbənin mənə verilməsinə razılığını bildirmişdi.

Finalda mən Qazaxıstan nümayəndəsi ilə görüşdüm. Hərçənd o, yüksək titullu, tanınmış atlet idi, 57 kq çəkidə dünya çempionu reytinq cədvəlində birinci olmuş, çempionatın qızıl medalını qazanmışdı. Ancaq rinqdə ilk anlardan gözüm rəqibi “yedi”, qələbəyə inamım artdı. Bu görüşdən mən qalib çıxdım, Dünya çempionu oldum. Bu, mənim böyüklər arasında dünya birinciliyində ikinci dəfə fəxri adı qoruyub saxlamağımın təsdiqi idi.

Müsahibim əlavə edib dedi ki, dayı, Əbu Dabi dünyanın ən gözəl, ən cazibədar şəhərlərindəndir. Onun əzəmətini təsvir etməyə söz tapa bilmirəm. İdmanla məşğul olduğum on ildən artıq müddət ərzində bir çox ölkə paytaxtları ilə tanışam, amma Əbu Dabi kimi füsunkarını görməmişəm.

**- Elvin, əziz bala, dayı, baba kimi soruşuram: De görüm, referi görüşü yekunlaşdırıb səni qalib tanıyanda hansı hissləri keçirirsən?**

- Keçirdiyim iftixar hissinin hər anını dilə gətirməyə, dayı, çətinləşirəm. Ancaq bilirəm ki, rinqə ayaq basan gənclərin hər biri döyüşü qələbə ilə başa vurmağa can atır. Son dörd ildə həmişə qalib gəlmişəm. Məğlubiyyətim olmayıb. İlk sevinci referi qələbəni təmin etdiyimi bildirib əlimi göyə qaldırmağa başlayanda duyub sevinirəm. Bu anda ilk minnətdarlıq sözünü qəlbimdə məşqçimə, məni məsul görüşlərə hazırlayan Eduard müəllimə yönəldirəm. Sonra Azərbaycanın üçrəngli bayrağını başımın üstünə qaldırıb rinq boyu dövrə vurur, qələbəmi nümayiş etdirirəm. Təsəvvür edin, bayraq başımın üstündə dövrə vururam, neçə minlik zal məni alqışlayır. Mənim şənimə əl çalır, xoş anlar yaşadırlar. Mən bu hissləri təkcə özümə deyil, əslimə-nəslimə, valideynlərimə, təmsil olunduğum ölkəmə - Azərbaycanımıza aid edirəm. Gələcəkdə daha möhtəşəm qələbələr qazanacağıma bir növ təminat verirəm.

Sonra. Mənim hələlik kiçik idman karyeramı yüksək qiymətləndirən Respublika Gənclər və İdman Nazirliyinə, məni tanıyanlara, adımı “İlin ən yaxşı idmançıları” nominasiyasına salanların hər birinə minnətdarlığımı bildirirəm. Bu seçim mənə -”Möhkəm dur, Elvin”,- deyən çağırış, tapşırıq, əmrdir. Mənsə idmanımızın ayıq-sayıq əsgəriyəm. Tapşırığa isə əməl etmək borcumdur! Qətiyyətim, fikrim də belədir. Bunu mən öz iradəm, düşüncəmlə təsdiq edirəm, altından da imzamı qoyub deyirəm:

Dərin hörmətlə: Məmmədov Elvin Elşən oğlu, kikboks üzrə ikiqat Dünya, ikiqat Avropa çempionu, “İlin (2025) Ən yaxşı idmançıları”ndan biri.

***Əsgər Əsgərov***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***
***Yanvar 2026-cı il.***



## Xəstəliyin səbəbləri, əlamətləri və mübarizə yolları...

# Xərçəngə qarşı birlikdə!

***Yeganə BAYRAMOVA***

Xərçəng bu gün bütün dünyada çoxsaylı insan ölümünə səbəb olan xəstəlikdir. Beynəlxalq Xərçəng Araşdırmaları Agentliyinin açıqlamasına görə, hər il dünyada təxminən 19,5 milyon insana xərçəng diaqnozu qoyulur. Hər il təxminən 10 milyon insan bu xəstəlikdən ölür.

Genetik meyil, tütün və spirt istifadəsi kimi xarici faktorlar, güclü Günəş şüasına məruzqalma, radiasiya, kanserogen və kimyəvi maddələr, müxtəlif viruslar, pis qidalanma vərdişləri və hava çirkliliyi xərçəng xəstəliyinin artmasının əsas amilləri kimi önə çıxır.

2005-ci ildən başlayaraq hər ilin bu günü Beynəlxalq Xərçəng Əleyhinə İttifaq tərəfindən qeyd edilir. Həmin günün təsis edilməsinin başlıca məqsədi diqqəti bu qlobal problemə yönəltmək, eləcə də xərçəng xəstəliyinin təhlükəlilik dərəcəsi və onun yeni müalicə üsullarını dünya ictimaiyyətinə çatdırmaqdır.

**Xərçəngdən qorunmağın yolları hansılardır?**

Mütəxəssislər xərçəngin qarşısını almaq üçün riski artıran ətraf mühit faktorlarından, xüsusilə tütün və spirtdən uzaq olmağın vacibliyini vurğulayır. Həmçinin mütəmadi olaraq idman etmək, tərəvəz və meyvələrlə zəngin sağlam qidalanma, uzun müddət günəş şüalarına məruz qalmamaq lazımdır.

Xəstəliyin qarşısını almaq üçün çəkini nəzarət altında saxlamaq və kifayət qədər yatmaq vacibdir. Digər qorunma yolu, hepatit və HİV-ə qarşı peyvənd olunmaqla müntəzəm olaraq xərçəng müayinəsindən keçməkdir.

Beynəlxalq Xərçəng Araşdırmaları Agentliyi xəstəliyin erkən diaqnozunun bu nöqtədə böyük əhəmiyyət kəsb etdiyini, xəstəliyin qarşısını almaq üçün mütəmadi müayinələrdən keçməyin şərt olduğunu açıqlayıb.

**Ötən il dünyada...**

Son illər dünyada xərçəng xəstəliyinə tutulanların artması ilə bərabər, xəstəliyin “cavanlaşması” da müşahidə edilir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 2025-ci ildə dünyada 20 milyon yeni xərçəng xəstəliyinin qeydə alınacağını vurğulayır. Qeyd olunur ki, ildə baş verən 55 milyon ölüm hallarından 4,2 milyonu məhz bu xəstəliyin payına düşür.

**Xəstəliyin növləri**

İki yüzdən çox xərçəng növü müəyyən edilsə də, onların rastgəlmə tezliyi insandan insana dəyişir. Dəri, döş, ağciyər, prostat vəzi, mədə, yoğun bağırsaq, uşaqlıq boynu xərçəngi və limfa düyünlərinin şişləri “bədxassəli şiş” və ya “ur” adlanan xəstəliyin ən çox yayılmış növlərindəndir. Xərçəng xəstəliyinin müalicəsi böyük xərc tələb edir və yüksək səviyyədə tibbi texnologiyanın 50 faizindən çoxunda, aşağı gəlirli ölkələrin isə 15 faizindən azında xərçəngin hərtərəfli müalicə imkanları mövcuddur.

**Azərbaycanda vəziyyət necədir?**

Təəssüf ki, ölkəmizdə də xərçəng xəstələrinin sayı ildən-ilə artır. Əgər 2010-cu ildə bu rəqəm 7626 idisə, 2021-ci ilin sonuna artıq 13 min 644 nəfərə çatıb.

Müqayisə üçün qeyd edək ki, 2022-ci ildə Azərbaycanda 62 min 385 onkoloji xəstə qeydiyyatda olub. Statistika Komitəsinin 2023-cü ilin sonuna olan məlumatına görə, ölkədə qeydiyyatda 70 minə yaxın xərçəng xəstəsi olub.

Ümumiyyətlə, kişilərdə və qadınlarda xərçəngin tezliyi fərqlidir. Dəri xərçəngi həm kişilərdə, həm də qadınlarda ən çox rast gəlinən növdür. Bunun ardınca kişilərdə ağciyər, prostat, yoğun bağırsaq, düz bağırsaq, mədə və mədəaltı vəzi xərçənglərinə tez-tez rast gəlinir. Qadınlarda isə süd vəzi, ağciyər, yoğun bağırsaq, düz bağırsaq, uşaqlıq boynu, yumurtalıq, mədə və mədəaltı vəzi xərçəngləri daha çox müşahidə olunur.

Azərbaycanda insanlar daha çox mədə, süd vəzi, ağciyər, qida borusu və s. xərçəng növlərindən əziyyət çəkir.

## Allah rəhmət eləsin!

Azərbaycan Universitetinin əməkdaşı, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının “Ceyhun Hacıbəyli 71” (Azərbaycan Universiteti) ərazi partiya təşkilatının sədr müavini

**FUAD NADİR OĞLU QIRXLAROV**

vəfat edib.

Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının rəhbərliyi və kollektivi Fuad Qırxlarovun vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

# Azercell “Tələbə Təqaüdü Proqramı 2026”nı elan edir

***Şirkət bu il daha bir qrup tələbəyə təqaüd təqdim edəcək***

Ölkənin lider mobil operatoru “Azercell Telekom” MMC gənc istedadların inkişafına dəstək məqsədilə həyata keçirdiyi “Tələbə Təqaüdü Proqramı”na qeydiyyatı açıq elan edir.

Təşəbbüs Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illəri əhatə edən strateji hədəflərə uyğun olaraq hazırlanıb. Bu çərçivədə Azercell-in bu ilki Tələbə Təqaüdü Proqramı  STEM (Elm, Texnologiya, Mühəndislik və Riyaziyyat) istiqamətləri üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulub. Proqram ölkədə İT/İKT, Data Elmi, Analitika, Süni İntellekt və Maşın Öyrənməsi, Robototexnika, Avtomatlaşdırma, Şəbəkə Texnologiyaları, Kibertəhlükəsizlik və İnformasiya Təhlükəsizliyi sahələrində ixtisaslaşmış yeni nəsil kadr potensialının formalaşdırılmasına töhfə verməyə yönəlib.

Azercell-in təqaüd proqramında yüksək akademik göstəricilərə malik bakalavr və magistr pillələri üzrə təhsil alan tələbələr iştirak edə bilərlər. Təqaüdə 4 illik bakalavr proqramlarının 3-cü və 4-cü kurs tələbələri, 5 illik bakalavr proqramlarının 4-cü və 5-ci kurs tələbələri, eləcə də magistratura səviyyəsinin 1-ci və 2-ci kurs tələbələri müraciət edə bilərlər.

Müraciətlər 11.02.2026-cı il tarixinədək qəbul olunur.

“Tələbə Təqaüdü Proqramı” üzrə seçim prosesi müraciətlərin ilkin qiymətləndirilməsi, iştirakçıların bilik və bacarıqlarının dəyərləndirilməsi, eləcə də müsahibə mərhələlərindən ibarətdir.

Proqram çərçivəsində ən yüksək nəticə göstərmiş bir qrup tələbə təhsil müddətinin sonunadək şirkətdən təqaüd alacaq. Həmçinin qaliblər şirkət daxilində potensial təcrübə və iş imkanları ilə tanış olmaq imkanı əldə edəcəklər.




Qeyd edək ki, istedadlı gənclərin dəstəklənməsini prioritet istiqamət kimi müəyyən edən Azercell son 16 il ərzində 300-dən çox tələbəyə təqaüd ayırıb, gənclərin bilik və bacarıqlarının inkişafına davamlı dəstək  olub.

Ətraflı məlumat və müraciət üçün keçid: “Tələbə Təqaüdü Proqramı 2026”


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4631**
**Sifariş: 177**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova